# 3000-dən çox müəllimin maaşına 35 faiz əlavə olub



**Sertifikasiya imtahanlarında nə qədər müəllimin maaşına 10 və 35 faiz əlavə olunduğu açıqlanıb.**

Bu barədə Təhsil İnstitutunun direktoru Rüfət Əzizov təkrar sertifikasiyada iştirak edəcək müəllimlər üçün təlimlərin təşkili ilə bağlı keçirilən brifinqdə məlumat verib.

O deyib ki, sertifikasiyadan keçən 5 624 müəllimin maaşına 10, 3127 müəllimin maaşına isə 35 faiz əlavə olub.



## Azərbaycan və Monteneqro arasında hava əlaqəsi yaradılacaq

**Azərbaycan və Monteneqro arasında hava əlaqəsi yaradılacaq.**

Bu barədə qanun layihəsi Milli Məclisə daxil olub. "Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə" qanunun layihəsi parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bu gün keçiriləcək onlayn iclasının gündəliyinə daxil edilib.


№ 53 (5814) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 mart 2023-cü il (cümə axşamı)




# İstehsal tarixi 10 ildən çox olan avtomobillər...

### Onların Azərbaycana gətirilməsinə icazə verilməyəcək

Zavod buraxılış tarixinə görə yaşı 10 ildən çox olan minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) Azərbaycan Respublikası ərazisinə gətirilməsi məhdudlaşdırılıb. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.



# İsraildə Azərbaycan səfirliyi açıldı

### 30 il gözlədik, amma daha yubatmaq olmazdı

**Dünən İsrailin paytaxtı Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin açılışı olub. Açılış mərasimində xarici işlər naziri Ceyhun Bayramov, millət vəkilləri iştirak ediblər.**

Qeyd edək ki, 2022-ci ilin sonunda Milli Məclis Azərbaycanın İsraildə səfirliyinin təsis edilməsi haqqında qanun layihəsini qəbul edib. Noyabrın 26-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İsrail Dövlətində Səfirliyinin təsis edilməsi haqqında" qanunu təsdiqləyib. Muxtar Məmmədov Azərbaycanın İsraildəki fövqəladə və səlahiyyətli səfir təyin edilib. M.Məmmədov bu il martın 26-da etimadnaməsini İsrail Prezidenti İsxak Hersoqa təqdim edib. Xarici işlər naziri Ceyhun Bayramovun İsrail xarici işlər naziri Eli Kohenlə görüşündə ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıqdan məmnunluq ifadə olunub.

(səh.2)

# Şəhid ailələrinə daha bir güzəştin verilməsi tövsiyə olunur




**Qarabağ müharibəsi və Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə daha bir güzəştin verilməsi tövsiyə olunur.**

Bu, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün Baş Kollektiv Sazişdə əksini tapıb.

Sazişdə Qarabağ müharibəsi və Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə respublika ərazisində yerləşən sanatoriya və turist bazalarına verilləcək yollayışların ümumi məbləğinin 15 faizinin işəgötürən tərəfindən ödənilməsi tövsiyə olunur.

# Fazil Mustafaya qarşı terror aktı

### Hədəf birmənalı millət vəkilini qətlə yetirmək olub








"Belə situasiyalarda hansısa tələskən versiyaların ortaya atılması doğru deyil, bu, cəmiyyətdə yanlış rəy formalaşdıra bilər"

**Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafaya Bakıda, yaşadığı evinin qarşısında silahlı sui-qəsd təşkil edilib.** Millət vəkilinə avtomat silahdan çoxsaylı atəş açılıb. Çiyin nayihəsindən və ayağından yaralanan deputata ilk olaraq Kliniki Tibbi Mərkəzdə həkim müdaxiləsi edilib. Sonra deputatın təhlükəsizliyinin daha yaxşı təşkil olunması məqsədilə o, hüquq-mühafizə qurumlarından birinin hospitalına aparılıb. Millət vəkilinə qarşı terror aktı həyata keçirən şəxs həlelik yaxalanmayıb. Hüquq-mühafizə orqanları sui-qəsdçini aşkarlamaq üçün genişmiqyaslı araşdırmalara başlayıblar.

(səh.3)

# Dərmanların qiyməti ucuzlaşa bilər

### Əhliman Əmiraslanov bildirib ki, dərmanların ölkəyə gətirilməsi ilə bağlı bürokratik əngəllər aradan qaldırılmalıdır



**"Dərman istehsalı məsələsində xeyli geridə qalmışıq, mən bununla razıyam. Bildiyimə görə, Ələt Azad İqtisadi Zonasında bir neçə dərman istehsalı müəssisələrinin tikilib istifadə verilməsi nəzərdə tutulub".**

Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dərman vasitələri haqqında" qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı deyib.

Deputat əlavə edib ki, İsrail və qardaş Türkiyədən, həmçinin digər ölkələrdən məhz bu istiqamətdə mütəxəssislər dəvət olunub.

(səh.6)



## Ərdoğan: "Türkiyə və Azərbaycan TANAP-la qazın Macarıstana çatdırılmasına dəstək verməyə hazırdır"

**Türkiyə və Azərbaycan TANAP vasitəsi ilə qazın Macarıstana çatdırılması üçün hər cür dəstək verməyə hazırdır.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada macarıstanlı həmkarı Katalin Novak ilə birgə mətbuat konfransı zamanı bildirib.

O qeyd edib ki, bu məsələdə "işlər qərarlılıqla davam edir".

# 3 nəfər vəfat edib

### 97 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 97 yeni yoluxma faktı qeydə alınıb, 2 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 829 591 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 819 117 nəfər müalicə olunaraq sağalıb, 10 178 nəfər vəfat edib, aktiv xəstə sayı 296 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 432, hazırkı dövrədək isə 7 556 844 test aparılıb.*

# Əməyin Mühafizəsi Mərkəzi yaradılacaq



**Azərbaycanda Əməyin Mühafizəsi Mərkəzi yaradılacaq.**

Bu, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2023-2025-ci illər üçün Baş Kollektiv Sazişdə əksini tapıb.

Eyni zamanda, Beynəlxalq Əmək Təşkilatının transmilli şirkətlərin fəaliyyətinin və sosial siyasətinin prinsipləri haqqında üçtərəfli Bəyannaməsinə əsasən, transmilli şirkətlərdə, xarici sərmayə ilə işləyən və müştərək müəssisələrdə çalışan işçilərin əmək və sosial- iqtisadi hüquqlarının qorunması ilə bağlı birgə iş aparılacaq.



# Laçın dünyanın ən gözəl şəhərlərindən olacaq

2025-ci ildə ora təyyarə ilə də gedə biləcəyik

(səh.2)



# "Övladlarımın 3-ü də Xankəndi doğumludu"

Həvva Məmmədova: "İndi də şəxsiyyət vəsiqələrində həmin ünvandır"

(səh.5)

# İsraildə Azərbaycan səfirliyi açıldı

## 30 il gözlədik, amma daha yubatmaq olmazdı




**Dünən İsrailin paytaxtı Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin açılışı olub. Açılış mərasimində xarici işlər naziri Ceyhun Bayramov, millət vəkilləri iştirak ediblər. Qeyd edək ki, 2022-ci ilin sonunda Milli Məclis Azərbaycanın İsraildə səfirliyinin təsis edilməsi haqqında qanun layihəsini qəbul edib.**

Noyabrın 26-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İsrail Dövlətində Səfirliyinin təsis edilməsi haqqında" qanunu təsdiqləyib. Muxtar Məmmədov Azərbaycanın İsraildəki fövqəladə və səlahiyyətli səfir təyin edilib. M.Məmmədov bu il martın 26-da etimadnaməsini İsrail Prezidenti İsxak Hersoqa təqdim edib.

Xarici işlər naziri Ceyhun Bayramovun İsrail xarici işlər naziri Eli Kohenlə görüşündə ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıqdan məmnunluq ifadə olunub. Siyasi, iqtisadi, ticarət, o cümlədən energetika, təhsil, yüksək texnologiyalar, hərbi-texniki və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ətrafında müzakirələr aparılıb. Azərbaycanla İsrail arasında tarixi dostluğa, əməkdaşlığa söykənən əlaqələrin mövcud olduğunu qeyd edən nazir Ceyhun Bayramov iki ölkə arasında intensiv qarşılıqlı səfərlərin münasibətlərin daha da inkişafına müsbət təkan verdiyini vurğulayıb. Azərbaycanın İsraildə səfirliyinin açılmasının strateji müttəfiqlik əlaqələrinin gücləndirilməsinə töhfə verəcəyi qeyd olunub. C.Bayramov həmkarını bölgədə postmünaqişə dövründə ölkəmizin sülh, təhlükəsizlik və əməkdaşlığın qurulması istiqamətində təşəbbüsləri barədə məlumatlandırıb. Bu səylərə baxmayaraq, Ermənistanın davamlı təxribatlar törətdiyi və prosesə xələl gətirdiyini qeyd edib. Həmçinin nazir işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verib, İsrail şirkətlərinin bu prosesdə iştirakını məmnunluqla qeyd edib. İsrail xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu deyib. Tərəflər strateji xarakter daşıyan ikitərəfli münasibətlərin bütün spektrləri, habelə beynəlxalq və regional məsələlər üzrə müxtəlif səviyyələrdə siyasi dialoqun bundan sonra da fəal surətdə inkişaf etdirilməsinə hazır olduqlarını ifadə ediblər. Kohen bildirib ki, Təl-Əvivdə Azərbaycan səfirliyinin açılması münasibətlərin dərinləşməsinə töhfə verəcək.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, İsrail Azərbaycanda səfirliyi 30 il bundan əvvəl açıb, biz isə 30 il gözlədik. Analitikin fikrincə, İran və ərəb amilinə görə İsraildə səfirlik açmaqdan çəkinmişik:** "Sonrakı illərdə aydın oldu ki, İsraildə səfirlik olmadan da Tehran Azərbaycana qarşı təxribatlarından əl çəkən deyil. Çünki Tehranın dərdi Azərbaycan-İsrail əməkdaşlığından çox Azərbaycanın dünyəvi müsəlman ölkəsi olaraq varlığıdır. Digər tərəfdən, son illərdə ərəb ölkələrinin bir qrupu İsraillə diplomatik əlaqələr qurublar. Ərəb ölkələri İsraildə səfirliklər açırlarsa, Azərbaycanın bu ölkədə niyə səfirliyi olmamalıdır? Azərbaycanın İsraildə səfirliyinin açılmasını şərtləndirən amillərdən biri də iki ölkə arasında artan əməkdaşlıqdır. İsraildən aldığımız hərbi texnikanın İkinci Qarabağ müharibəsindəki uğurumuzda payı az deyil. İsrail Azərbaycanla əməkdaşlığı təhlükə altına atmamaq üçün düşmənimiz Ermənistana hərbi texnika satmadı. Halbuki İrəvanın belə cəhdləri olmuşdu. Hərbi-texniki sahədə əməkdaşlıq o həddə çatıb ki, İsrail şirkətinin dəstəyi ilə bugünlərdə Bakıda kibertəhlükəsizlik mərkəzi açılıb. Bundan başqa, Azərbaycan illərdir Ceyhan limanı üzərində İsrailə neft satır. Bu, İsrailin neftə olan tələbatının təxminən 30 faizdən çoxunu təşkil edir. Bütün bunlardan sonra Azərbaycanın İsraildə səfirliyinin açılmasını yubatmaq olmazdı".

**İsmayıl Qocayev**

# Laçın dünyanın ən gözəl şəhərlərindən olacaq

## 2025-ci ildə ora təyyarə ilə də gedə biləcəyik

**Prezident İlham Əliyevin sərəncamı ilə Məsim Məmmədov Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi təyin edilib. Bu təyinatadək M.Məmmədov iqtisadiyyat nazirinin müşaviri vəzifəsini tutub. O daha əvvəl də bir sıra yüksək vəzifələrdə çalışıb.**



Əmlak Məsələləri Dövlət Xidmətinin və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət, təbii sərvətlərin qanunsuz istismarını araşdıran monitorinq qrupunun rəhbəri kimi də fəaliyyət göstərib. Prezident İlham Əliyev Məsim Məmmədovu qəbul edərkən ona öz tapşırıqlarını verib. Dövlət başçısı qeyd edib ki, infrastruktur layihələri, əlbəttə ki, mərkəzi icra orqanları tərəfindən icra edilir. Lakin Prezident qeyd edib ki, xüsusi nümayəndə də Laçın rayonunun gələcək inkişafı ilə bağlı iş yerlərinin yaradılması, vətəndaşların rahat yaşaması ilə bağlı konkret əlavə təkliflər verməlidir: "Çünki biz çalışırıq ki, azad edilmiş bütün rayonlarda işlər paralel surətdə getsin. Ona görə, məsələn, hər rayonda 3-4 kəndin birinci mərhələdə qurulması nəzərdə tutulur, eyni zamanda, əlbəttə ki, şəhərlər də daxil olmaq şərti ilə. Ancaq, məsələn, söhbət Laçın rayonundan gedirsə, Laçın rayonunda birinci mərhələdə qurulacaq bütün kəndlərin adları təsdiqləndi və biz birinci mərhələdə bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirəcəyik. Çünki bu, həm onların yaşaması, eyni zamanda, nəqliyyat-logistika məsələlərinin həlli üçün daha əlverişlidir. Bizim bütövlükdə təkcə Qarabağda, Şərqi Zəngəzurda deyil, digər bölgələrimizdə də dağ rayonlarında kəndlər bir-birindən aralı yerləşirdi və bu, bir çox hallarda insanların rahat yaşamasına o qədər də imkan vermirdi. Yəni, bu, ənənəvi olaraq belə qurulub".

Prezident vurğulayıb ki, Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir: "Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək. Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdu. Bütövlükdə bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur. İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparıblar. Xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə yerləşdirilib. Bu, bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, Ermənistan dövləti bu hərbi cinayətə görə hələ də məsuliyyətə cəlb edilməyib".

Ölkə başçısı bəyan edib ki, biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq: "İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdi, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxardı. Vaxtilə "Qarabağ Ermənistandır" deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdu və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir".

**Millət vəkili Sahib Alıyev deyib ki, cənab Prezident İlham Əliyevin Məsim Məmmədovu Laçın rayonuna xüsusi nümayəndə təyin etdiyi zaman dedikləri əminəm ki, Ermənistandan da çox bizə düşmən kəsilən digər mənfurları qıcıqlandırır. Deputatın sözlərinə görə, söhbət ilk növbədə işğaldan azad olunmuş şəhər və kəndlərimizdə aparılan quruculuq işlərindən gedir:** "Diqqət yetirdinizsə, dövlətimizin başçısı bildirdi ki, onlardan biri - Laçın dünyanın ən gözəl və yaşamalı şəhərlərindən olacaq. Və ora uzağı 2025-ci ilin əvvəlinə təyyarə ilə də gedə biləcəyik ki, bizim dörd bir yanımızda hələ indiyə qədər heç kim belə mürəkkəb relyefi olan yerdə hava limanı tikməyib. Bunu savaşdan təzə çıxan, işğal zamanı torpaqlarının 20 faizində bütün infrastruktur dağılmış, yaşayış məntəqələrinin demək olar ki, hamısının altı-üstünə çevrilmiş Azərbaycan, ancaq öz gücünə, öz potensialına dayanaraq reallaşdırır. Təsəvvür edirsinizmi? Minlərlə laçınlı artıq bu ildən doğma şəhərlərində, eləcə də Zabux və Sus kəndlərində yaşamağa başlayacaqlar. O yerlərdə ki, təkcə haylar deyil, cənab Prezidentin riyakar adlandırdığı Fransa kimi dövlətlər də, oralara azərbaycanlıların dönməsini qətiyyən istəmirdilər, bu gün də həzm edə bilmirlər. Nə yazıqlar ki, həzm edə bilməyənlərin başında da qonşu İran gəlir. Əminəm ki, savaşda əldə etdiyimiz qələbə kimi, işğal zamanı son daşınadək sökülən şəhər və kəndlərimizin yerində əvvəlkilərdən qat-qat gözəl və funksionallarının salınması da o ölkəni qıcıqlandırır. Çünki İranda yaşayanlar, ilk növbədə də azərbaycanlılar iki idarəçilik modeli arasındakı kəskin fərqdən bərk təsirlənir və rejimə qarşı nifrətləri daha da artır".

*S.Alıyev vurğulayıb ki, onlar Arazın bu tayındakıların özlərindən təkcə müqayisə olunmayacaq dərəcədə azad və sərbəst yaşamadıqlarını görürlər:* "Onu da görürlər ki, İranın qaz və neft ehtiyatları Azərbaycandan qat-qat çox olduğu halda burada insanlar daha yaxşı dolanır, şəhər və kəndlərimiz özlərininkindən xeyli abaddır. Ardıcıl olaraq aparılan quruculuq işləri isə aradakı fərqi durmadan artırır. Niyə? Çünki Azərbaycan dövləti əldə etdiyimiz gəlirləri Suriyada, Livanda, İraqda, Yəməndə və daha bir neçə ölkədə proksilərin, terror şəbəkələrinin saxlanmasına yox, xalqın rifahının yaxşılaşdırılmasına, şəhərlərin, kəndlərin abadlaşdırılmasına xərcləyir. Tehran rejimi təbii ki, bunu özü üçün böyük təhlükə sayır, o üzdən də dövlətimizə qarşı düşmənçilik siyasətini yeritməkdə davam edir və edəcək. Prezident İlham Əliyev Laçın rayonu üzrə xüsusi nümayəndəsinə insanlar doğma yurdlarına döndükdən sonra orada torpaqların zəbti, meşə fondunun məhvi və digər xoşagəlməz hallara "dözümlülük sıfır dərəcəsində olmalıdır" dedi. Hay nasistləri Şərqi Zəngəzurda 60 min hektar meşəni necə vəhşicəsinə kəsib-doğramışdılarsa, bax, bu gün fars şovinistləri eyni hirslə bizim mənəvi mühitə zərbə vurmaqdadırlar. Mənəvi mühitin korlanması isə təbii mühitinkindən heç də az fəlakət vəd etmir. Ona görə də Azərbaycana qarşı düşmənçilik siyasəti yeridənlərə, bu ölkədə xurafatçılıq, məzhəb qarşıdurması yaymağa çalışanlara casusluq, trolluq edən, onların tapşırığıyla durub-oturanlara da cəmiyyət və fərd olaraq artıq dözümlü yanaşmaya son qoymalıyıq".

**İsmayıl**



# Ağsu rayonunda yol tikintisinə 7,8 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Ağsu rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (19 km)-Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, on min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (19 km)-Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.3-cü yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 7,8 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Qanunsuz tikililərin qarşısı alınacaq

## Qanunvericilik dəyişdirilir

**Dünən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin videokonfrans formatında iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitə sədri Sadiq Qurbanov gündəliyə birinci oxunuşda üç məsələnin daxil edildiyini bildirib.

Sonra komitə sədri birinci oxunuşda müzakirəyə çıxarılan "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında" və "Su təchizatı və tullantı suları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı məlumat verib.

Diqqətə çatdırılıb ki, adı çəkilən qanunlara eyni mahiyyətli dəyişikliklərin edilməsi nəzərdə tutulub. Həmin qanunların müvafiq maddələrinə təklif olunan əlavələrə görə, Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə, onların qaz qurğularının qazpaylayıcı şəbəkəyə, habelə su təchizatı və kanalizasiya şəbəkələrinə qoşulması qadağandır.

Onlayn iclasda komitə üzvləri İltizam Yusifov, Məşhur Məmmədov, Nəsib Məhəməliyev, Əliabbas Salahzadə, Afət Həsənova, Mixail Zabelin, parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış edərək, qanun layihələrinin əhəmiyyətindən danışıblar, düzəlişlərin məqsədəmüvafiq olduğunu bildiriblər. Deputatlar təqdim olunan sənədlərin qanunsuz tikililərin qarşısının alınmasına xidmət edəcəyini söyləyiblər.

Müzakirələrin sonunda hər üç qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitənin sədri və üzvləri ötən gün Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilən terror hadisəsi barədə fikirlərini açıqlayıblar. Deputatlar bu hadisəni pisləyərək, onun araşdırılacağına, terror aktını törədənlərin müəyyən oluunacağına və layiqli cəzalarını alacaqlarına əminliklərini ifadə ediblər.

Qeyd edək ki, elektrik, qaz və suya qanunsuz qoşulmaya dair cinayət məsuliyyəti müəyyənləşir.

Bu, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı suları haqqında" qanunlara təklif edilən dəyişiklikdə əksini tapıb.

Tələblərin pozulmasına görə Cinayət Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən təbii qaz, su, kanalizasiya, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxslərinin məsuliyyəti də nəzərdə tutulur.

# ABŞ Dövlət katibinin köməkçisi Azərbaycana gəlib

**ABŞ Dövlət katibinin beynəlxalq təşkilatlar üzrə köməkçisi Mişel Sison Azərbaycanda səfərdədir.**

**Bu barədə ABŞ səfirliyi məlumat yayıb.**



"ABŞ-nin Bakıdakı səfirliyi Azərbaycanda səfərdə olan və ABŞ-nin kollektiv qlobal çağırışların həllində çoxtərəfli əməkdaşlığa sadiqliyini müzakirə etmək məqsədilə dövlət rəsmiləri ilə görüşlər planlaşdıran ABŞ Dövlət katibinin beynəlxalq təşkilatlar üzrə köməkçisi Mişel Sisonu salamlamaqdan məmnundur. Azərbaycanda olarkən Dövlət katibinin köməkçisi cari və potensial çoxtərəfli əməkdaşlığın sahələrini nəzərdən keçirəcək. Buraya "Dayanıqlı İnkişaf Məqsədlərinə" nail olmaq konteksti və iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və qlobal səhiyyə təhlükəsizliyi daxil olmaqla, transmilli problemlərin həlli kimi məsələlər də daxildir. Dövlət katibinin köməkçisi Sison həmçinin Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru vəzifəsinə ABŞ tərəfindən namizədliyi irəli sürünən Emi Pope üçün təbliğat aparacaq. Dövlət katibinin köməkçisi Sison ABŞ Dövlət Departamentinin Beynəlxalq Təşkilat İşləri Bürosuna rəhbərlik edir. Altı diplomatik missiyası (Cenevrə, Monreal, Nayrobi, Nyu-York, Roma və Vyana) olan büro Birləşmiş Millətlər Təşkilatında və digər çoxsahəli təşkilatların geniş spektrində ABŞ siyasətini hazırlayır və həyata keçirir. Təşkilatın əsas missiyası daha effektiv və səmərəli BMT və çoxtərəfli sistem vasitəsilə ABŞ-nin maraqlarını inkişaf etdirmək üçün bir vasitə kimi çoxtərəfli diplomatiyadan istifadə etməkdir", - səfirlikdən bildirilib.






# Fazil Mustafaya qarşı terror aktı

## Hədəf birmənalı millət vəkilini qətlə yetirmək olub

**Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafaya Bakıda, yaşadığı evinin qarşısında silahlı sui-qəsd təşkil edilib. Millət vəkilinə avtomat silahdan çoxsaylı atəş açılıb. Çiyin nayihəsindən və ayağından yaralanan deputata ilk olaraq Kliniki Tibbi Mərkəzdə həkim müdaxiləsi edilib. Sonra deputatın təhlükəsizliyinin daha yaxşı təşkil olunması məqsədilə o, hüquq-mühafizə qurumlarından birinin hospitalına aparılıb.**

Millət vəkilinə qarşı terror aktı həyata keçirən şəxs hələlik yaxalanmayıb. Hüquq-mühafizə orqanları sui-qəsdçini aşkarlamaq üçün genişmiqyaslı araşdırmalara başlayıblar. Deputatın qardaşı İlqar Mustafayev deyib ki, F.Mustafa evə qayıdarkən tək olub və bu, planlaşdırılmış hücum olub: "Maşından düşən zaman onu izləyiblər. Qaranlıq olub. Həyətdə dəmir dirək var, onlar orada pusqu qurub, məqsədyönlü şəkildə qardaşımı gözləyiblər. Bu, sifarişli hadisədir. Kamera görüntülərinə silahlı şəxslər düşməyiblər, yalnız Fazilin çevik davranaraq həyətə girib qapını bağlaması anı var. Cəld qardaşım oğlu Toğrula zəng edib. Silahdan bir neçə atəş açılıb, xoşbəxtlikdən yan keçib. Həyətə tərəf qaçarkən iki güllə çiyin və ayaq nahiyəsinə dəyib. Hadisəni törədənlər hüquq-mühafizə orqanları tərəfindən axtarılırlar. İstintaq getdiyi üçün biz qeyri-dəqiq məlumatlar vermək istəmirik". Fazil Mustafanın evinin və ailə yaxınlarının təhlükəsizliyinin təmin edilib-edilməməsi ilə bağlı suala isə İlqar Mustafayev belə cavab verib: "Təhlükəsizlik məqsədilə ölkənin güc strukturları tərəfindən bütün zəruri tədbirlər görülüb".

**Silahlı hücuma məruz qalmış deputat da hadisə ilə bağlı açıqlamalar verib. Parlament üzvü bildirib ki, maşını qaraja daxil etmək istəyərkən avtomobilin "podpres"i silkələnib və o, çiynində dəhşətli ağrı hiss edib:** "Sonra bunun atəş zərbəsi olduğunu anladım, çünki atəş səslərini eşitdim. Qapını açıb düşdüm. Darvazaya tərəf bir neçə addım atanda artıq ikinci güllə mənə dəydi. Ayağımdan yaralandım. Evə gedərək tez qapını bağladım. Təcili yardım maşınında özümü təhlükəsiz hiss edəcəyim xəstəxanaya aparılmağı xahiş etdim. Amma çox qan itirmişdim. Bədənim əsirdi. Başqa heç nə xatırlamıram. Özüm də başa düşmədim ki, necə sağ qaldım. Allah saxladı. Möcüzə oldu". Millət vəkilinin həyat yoldaşı Zülfiyyə xanım bildirib ki, qanaxması olduğu üçün Fazil Mustafa dünən yenidən əməliyyat olunub. Yoldaşı Fazil Mustafanın bədənindəki güllənin həkimlər tərəfindən evdə çıxarıldığını deyib: "İkinci əməliyyat qanaxması olduğu üçün həyata keçirildi. Güllə isə hadisədən dərhal sonra, elə evdə həkimlərin müdaxiləsi nəticəsində bədənindən çıxarılmışdı".

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığına əsasən, Prezidentin köməkçisi Anar Ələkbərov terror aktına məruz qalmış Fazil Mustafanı müalicə olunduğu xəstəxanada ziyarət edib, onun ailə üzvləri ilə görüşüb. Diqqətə çatdırılıb ki, xain terror aktını törətmiş şəxsin və ya şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb olunması istiqamətində təxirəsalınmaz əməliyyat-istintaq tədbirlərinin aparılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən hüquq-mühafizə orqanlarına göstəriş verilib.

Deputat Fazil Mustafanın güllələnməsi ölkə ictimaiyyətində şok effekti yaradıb. Ona sui-qəsd təşkil olunması ilə bağlı müxtəlif versiyalar səsləndirilir. Məlumdur ki, illərdir İrana bağlı dini və siyasi çevrələrlə Fazil Mustafa arasında "soyuq savaş" gedirdi. Düzdür, Azərbaycanda İranın siyasətini çoxları tənqid edir, lakin mollalar Fazil Mustafanı "din düşməni" elan ediblər. Çünki F.Mustafa İranın Azərbaycana ixrac etdiyi xurafata qarşı çıxanlardır və zaman-zaman fikirlərinə görə sosial şəbəkələrdə İranmeyilli şəxslər tərəfindən təhqirlərə, hətta təhdidlərə məruz qalıb. İran və bu ölkədəki mollalara bağlı olan şəbəkə Fazil Mustafanı "Aşura" mərasiminə və Əhli-Beytə qarşı olmaqda ittiham edir. Halbuki deputat bu məsələlərə yox, dini xurafata qarşı çıxır. Mollalar isə onun haqqında belə ictimai rəyi yaratmaqla məsələni dini müstəviyə daşıyırlar. O səbəbdən millət vəkilinə, özü də avtomat silahla hücum edilməsinin təsadüf olmadığı bildirilir. Avtomat silah yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə terror hücumu zamanı istifadə edilmişdi. Bəzi ekspertlərə görə, "Bravo" hipermarketin bankomat yerləşən giriş hissəsinə, həm də Fazil Mustafaya hücumda avtomatdan istifadə hansısa məna kəsb edir. Fazil Mustafaya hücum üçün 28 mart tarixinin seçilməsinin də təsadüf olmadığı iddia edilir. Həmin gün Dövlət Təhlükəsizliyi Xidmətinin yaranmasının 104-cü ildönümüdür. Məhz bu ildönüm zamanı edilən hücum da mesaj xarakteri daşıyır. Daha bir iddia isə İsraildə səfirliyimizin binasının açılması ilə bağlıdır. XİN başçısı Ceyhun Bayramov dünən İsraildə səfərdə olub və İsraildəki səfirliyimizin açılışında iştirak edib. Dövlət Təhlükəsizliyi Xidməti (DTX) deputata qarşı silahlı hücumun terror olduğunu rəsmi şəkildə elan edib. Ona görə də sosial şəbəkələrdə hücumun arxasında İranın durduğu iddiası səslənməkdədir. Sui-qəsdin İran tərəfindən öncədən planlandığı və icra edildiyini göstərən konkret izlərin olduğu da deyilir. DTX-nın İran casusları ilə bağlı yayımladığı videoda saxlanılan şəxslər tanınmış dövlət və ictimai xadimlərə qarşı sui-qəsd tapşırığı aldıqlarını etiraf etmişdi. Bu etiraf əslində hadisənin öncədən planlandığını sübut edir. Hadisə sonrası "Hüseniyyun" qruplaşması bəyanat yayıb. Qruplaşma məsuliyyəti üzərinə götürməsə də, qeyd edir ki, "Sionistlər və onların Azərbaycanda olan icraçı qüvvələri bilməlidirlər ki, heç bir müsəlman ölkəsində onların təhlükəsizliyinə zəmanət verilməyib". Terrordan sonra sosial şəbəkənin Azərbaycan seqmentində İran agenturasının təsiri altında olan şəxslərin hadisədən sevinc duyduqlarını əks etdirən paylaşımlar edilib. Bu tip paylaşım edən insanların profillərinə nəzər saldıqda Xomeyni, Qasım Süleymani ilə paylaşımların edildiyini görmək mümkündür. İranın əksər saytları, televiziya kanalları Fazil Mustafaya qarşı terror hücumunu geniş şəkildə tirajlayır. Diqqətçəkən məqam isə "o qatı şiə düşmənidir" tezisinin qabardılmasıdır. İran bu yolla həm də hadisəni leqallaşdırmağa çalışır.

"Belə situasiyalarda hansısa tələskən versiyaların ortaya atılması doğru deyil, bu, cəmiyyətdə yanlış rəy formalaşdıra bilər"

Maraqlı məqamdan biri də odur ki, martın 28-də İrana bağlı terror qrupları bir neçə ölkədə İsrail vətəndaşları və başqa şəxslərə qarşı terror törətməyə çalışıblar. Fazil Mustafaya qarşı törədilən terrorla eyni vaxtda Yunanıstanın paytaxtı Afinada da İsrail vətəndaşlarına məxsus restoranda terror törətməyi planlaşdıran iki şəxs həbs edilib. MOSSAD saxlanılan şəxslərin İrandan idarə olunan geniş terror şəbəkəsinin üzvü olduqlarını elan edib. Həbs edilən 27 və 29 yaşlı terrorçuların İrandan göstəriş aldıqları üzə çıxıb.

Bu, Azərbaycanda nüfuzlu və tanınmış şəxslərə, dövlət xadimlərinə qarşı törədilmiş ilk terror aktı deyil. Xatırladaq ki, yazıçı Rafiq Tağı da 2011-ci il noyabr ayının 19-da naməlum şəxs tərəfindən bıçaqlanıb və 4 gün sonra müalicə aldığı xəstəxanada vəfat edib. Rafiq Tağı hadisənin həmin ərəfədə yayımlanan "İran və Qloballaşma qaçılmazlığı" məqaləsinə görə törədildiyini deyib. Bir məqaləsinə görə iranlı ayətullah Fazil Lənkərani onun haqqında ölüm fətvası verib. 1996-cı il fevralın 26-da Milli Məclisin deputatı, milliyətçə avar olan Əli Ansuxski Bakının mərkəzində, evinin qarşısında məruz qaldığı terror nəticəsində odlu silahla qətlə yetirilib. Məlumatlara görə, qatillər deputatı ağzından güllələyiblər. Əli Ansuxskinin qətlinin gerçək səbəbləri bu günə qədər müəmmalı qalıb. Azərbaycanın dövlət xadimi Afiyəddin Cəlilov da 1994-cü il sentyabrın 29-da Bakıda yaşadığı binanın blokunda sui-qəsd nəticəsində qətlə yetirilib. Onun qətli ilə bağlı bu günədək müxtəlif versiyalar səsləndirilir.

2018-ci ildə Gəncənin sabiq icra başçısı Elmar Vəliyev Yunis Səfərov tərəfindən odlu silahdan açılan atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb və bir müddət xəstəxanalarda müalicə alıb. Yunis Səfərovun terror aktını törətməkdə əsas məqsədi Azərbaycanda şəriət qanunları ilə idarə olunan "islam dövləti" qurmaq, bunun üçün bir neçə tanınmış dövlət məmurunu öldürməklə respublikada ajiotaj, xaos, vahimə yaratmaq, nəticə etibarı ilə hakimiyyətin zorla ələ keçirilməsini təşkil etmək olub.

**Terror aktı ilə bağlı "Şərq"ə danışan Təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu bildirib ki, deputat Fazil Mustafaya qarşı sui-qəsdin məqsədi onu öldürmək olub. Ekspertin sözlərinə görə, bu, birmənalıdır və burada şübhə ola bilməz:** "Xəbərdarlıq xarakterli atəş adətən tapançadan edilir, ayağından atırlar. Amma burada güllələrdən biri deputatın çiyin nahiyəsindən dəyib, digəri isə ayağından. Bu, o deməkdir ki, sui-qəsddə birbaşa insanın özü hədəf alınıb. Həyati əhəmiyyət kəsb edən orqanları - döş qəfəsi, qarın boşluğu, o cümlədən baş nahiyəsi hədəf alınıb. Yəni şübhə yox ki, burada məqsəd hədəfi qətlə yetirmək olub. Nəzərə alaq ki, burada söhbət dövlət rəsmisindən, yəni Milli Məclisin üzvündən gedir. Milli Məclis ölkənin ali qanunverici orqanıdır və sui-qəsdə məruz qalmış şəxs parlamentdə ölkənin qanunlarına imza atan 125 nəfərdən biridir. Deməli, baş vermiş hadisə siyasi terrordur və birbaşa dövləti, cəmiyyəti təhdid etməyə yönəlib".

Ə.Oruclu deyib ki, o, belə situasiyalarda hansısa tələskən versiyaların ortaya atılmasının tərəfdarı deyil: "Bu, cəmiyyətdə yanlış rəy formalaşdıra, ümumiyyətlə, tamamilə yanlış istiqamətə yönəldə bilər. Məlumdur ki, ortada terror faktı var. Siyasi terror törədilib. Bəs bunu kim edə bilər? İstənilən dövlət edə bilər. Hökmən deyil ki, bu, İran və Rusiya olsun. Təbii ki, bu gün Azərbaycanda daha çox qarışıqlıq yaratmaq istəyən bu iki dövlətdir. Bunu başa düşürük. Ancaq üçüncü bir dövlət, ağlımıza gəlməyən bir ölkə də belə bir terroru həyata keçirə bilər. Yəni məsuliyyətin İran və Rusiyanın üzərinə atılacağını hesablayaraq, mətbuat vasitəsilə dəstək verərək bunu reallaşdıra bilərlər. Başqa terrorçu təşkilat, yaxud hansısa fərd tərəfindən də törədilə bilər. O səbəbdən mən konkret hansısa ölkə haqqında rəy bildirərək, əslində terrorun arxasında dayanan və yanlış istiqamət göstərməkdə maraqlı olan təşkilatçının əlinə oynamaq istəmərəm. Təhqiqat göstərəcək ki, terror aktını kimin sifarişi ilə kim törədib? Burada söhbət sıradan vətəndaşdan yox, ali qanunverici orqanın üzvündən gedir. Hər kəsin versiya səsləndirmək haqqı var, amma çalışmalıyıq ki, ictimai rəy yanlış istiqamətə yönəlməsin".

**Azərbaycan Xalq Partiyasının sədri, keçmiş baş nazir Pənah Hüseyn də millət vəkili Fazil Mustafanın sui-qəsdə məruz qalmasına münasibət bildirib. Partiya sədri bildirib ki, sui-qəsd hadisəsi ilə bağlı istintaq orqanlarının təhqiqatının nəticəsini gözləmək lazımdır**: "Amma bunun bir terror aktı olması, Fazil Mustafanın çıxışları və fəaliyyəti ilə əlaqədar olması məncə şübhə doğurmur. Konkret sifarişçilər və icracılar tapılaraq cəzalandırılmalı, məsuliyyətə cəlb olunmalıdır. Kimlərin törətməsindən və motivasiyadan asılı olmayaraq, bunu cəmiyyətdə gərginlik yaratmaq və bütövlükdə Azərbaycana qarşı yönəlmiş hadisə kimi dəyərləndirirəm. Pisləyirik. Baş verən hadisə cəmiyyətdə xofa, həyəcana, qorxuya, qarşıdurmaya gətirib çıxarmamalıdır və ümid edirəm ki, elə də olmayacaq. Bu terrorun təşkilatçıları və sifarişçiləri məqsədlərinə çata bilməyəcəklər".

**İsmayıl Qocayev**

# Tarixi görüş

## İsraildə səfirliyimizin açılması ikitərəfli münasibətləri daha da sıxlaşdıracaq



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov və İsraildən olan həmkarı Eli Kohenin görüşündə müzakirə olunan məsələlər açıqlanıb.**

Bu barədə Azərbaycan XİN-dən bildirilib. Məlumatda qeyd olunur ki, görüş zamanı Azərbaycanla İsrail arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıqdan məmnunluq ifadə olunaraq, siyasi, iqtisadi, ticarət, o cümlədən energetika, təhsil, yüksək texnologiyalar, hərbi-texniki və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ətrafında müzakirələr aparılıb.

Görüşdə C.Bayramov həmkarını bölgədə postmünaqişə dövründə ölkəmizin sülh, təhlükəsizlik və əməkdaşlığın qurulması istiqamətində təşəbbüsləri barədə məlumatlandırıb. Bu səylərə baxmayaraq, Ermənistanın davamlı təxribatlar törətdiyi və prosesə xələl gətirdiyini deyib. Həmçinin, nazir işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verib, İsrail şirkətlərinin bu prosesdə iştirakını məmnunluqla qeyd edib.

İsrailin Xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

**İsrail və Azərbaycan arasındakı bütün sahələrdə münasibətlərin inkişaf etdiyini deyən politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, bu münasibətlər müxtəlif sınaqlardan keçərək möhkəmlənib:** "Bilirik ki, regionda gərginlik getgedə artır. Gərginliyə isə əsasən, İranın nüvə proqramını davam etdirməsi və Ermənistanın Azərbaycanla münasibətləri normallaşdırmaqdan imtina etməsi səbəb olur. Bu, hər iki ölkə üçün müəyyən təhdidlər ortaya qoyur. Təhdidlərlə mübarizə aparmaq üçün ikitərəfli münasibətlərin inkişafı çox vacibdir. Hətta 44 günlük savaşda İsrail Azərbaycana kifayət qədər dəstək verdi. İsraildən əldə olunan silah və texnikalar müharibədə həlledici rol oynadı. Eyni zamanda Azərbaycan və İsrail arasında olan təhlükəsizlik münasibətləri də hər iki ölkə üçün önəmlidir. Həmçinin, bu yaxınlarda israilli mütəxəssislərin iştirakı ilə Azərbaycanda kibertəhlükəsizliklə bağlı mərkəz də açıldı".

**Analitikin sözlərinə görə, İsraildə səfirliyimizin açılması ikitərəfli münasibətləri daha da sıxlaşdıracaq:** "Son zamanlar iki ölkə arasındakı turizm münasibətləri də inkişaf edib. Yəni hər iki ölkənin vətəndaşlarının həm Azərbaycana, həm İsrailə axını baş verir. Digər tərəfdən, enerji sahəsindəki əlaqələr də kifayət qədər məhsuldardır. Azərbaycanın iştirakı ilə regionda iri enerji layihələri həyata keçirilir. Eyni zamanda qaz nəqliyatı ilə bağlı həyata keçirilən layihələrin köməyi ilə gələcəkdə İsrail qazı da Avropaya nəql edilə bilər. Ümumiyyətlə hər iki ölkə arasındakı münasibətlər ən yüksək səviyyədədir və səfirliyimizin açılışı bunu daha da inkişaf etdirəcək".

**Nihat Müzəffər**

# Koronavirus qrip kimi həyatımızda daimi qalacaq

## Payız-qış mövsümündə hətta yoluxma sayında müəyyən artımlar qeydə alınacaq



**Hazırda yeni növ koronavirus infeksiyası ilə əlaqədar epidemioloji durum qənaətbəxş hesab edilir. Uzun müddətdir ki, yeni yoluxma hallarının sayı minimal - ikirəqəmli həddədir.**

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis eksperti, infeksionist Təyyar Eyvazov deyib. Onun sözlərinə görə, yoluxan insanların böyük əksəriyyəti xəstəliyi yüngül keçirir, xəstəxanalara yatış sayı çox kiçik həddədir: "Hətta bir neçə vaxt davam edən bayram günlərində insanlar arasında təmasların sayının artmasına baxmayaraq, yoluxma hallarında artım müşahidə edilmədi. Bu, onu deməyə əsas verir ki, vəziyyət kifayət qədər dayanıqlıdır. Səbəb isə əhalinin əksər hissəsində xəstəliyə qarşı immunitetin formalaşmasıdır ki, bu da bir tərəfdən xəstəliyi keçirmə, digər tərəfdən isə əsasən kütləvi vaksinasiya hesabına əldə edilib. Təsadüfi deyil ki, Nazirlər Kabineti son vaxtlarda karantin rejiminin yumşaldılması istiqamətində qərarlar qəbul edir və son günlərdə də bu istiqamətdə addımlar atılmaqdadır".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus isə əmindir ki, 2023-cü ildə COVID-19 pandemiyası başa çatacaq və bu xəstəliklə bağlı beynəlxalq fövqəladə vəziyyət rejimi ləğv olunacaq: "Hazırda biz, sözsüz ki, pandemiya zamanlarında olduğundan daha yaxşı vəziyyətdəyik". Həftəlik qeydə alınan ölüm hallarının sayı ÜST 3 il bundan əvvəl "SARS-CoV-2" virusunun yayılmasına münasibətdə birinci dəfə "pandemiya" kəlməsini işlətdiyi vaxtla müqayisədə ilk dəfə olaraq aşağıdır. "Yaxşılaşma əhəmiyyətli şəkildədir".

**İnfeksionist-hepatoloq Mərdan Əliyev də "Şərq"ə açıqlamasında deyib ki, Novruz bayramı tətili ölkədə COVİD-19 infeksiyasına yoluxma hallarının statistikasına ciddi təsir etməsə də, ölüm sayında artım müşahidə edilib:** "Bildiyiniz kimi, martın 25-də analiz nümunələri müsbət çıxanlar arasında 7 nəfər koronavirusdan ölüb. Hesab edirəm ki, ölüm göstəricisinin bayram ərəfəsində artmasının əsas səbəbi də həkimə gec müraciət olunmasıdır. Bayram günlərində adətən insanlar xəstəxanaya getməyə meyilli olmur. Gözləyirlər ki, bayram bitsin, sonra müraciət etsinlər. Belə olan halda da ağırlaşma müşahidə edilir".

Həkimin sözlərinə görə, koronavirusa yoluxma sayında üç -dördrəqəmli statistika olanda bayram tətili, kütləvi tədbirlər yoluxma sayına ciddi təsir edir: "Yoluxma sayı kifayət qədər az olduğu üçün konsertlərdə, tədbirlərdə yan- yana gələn insanların birbirini yoluxdurması ehtimalı da azdır. Amma bununla belə yoluxma sayının rəsmi statistikadan çox olduğunu düşünürəm.

Xəstələr virusu yüngül keçirdiklərindən əksəriyyət həkimə müraciət etmir və ev şəraitində müalicə olunur. Analiz verməyə də ehtiyac duymurlar".

**Koronavirusa yoluxmanın nə zaman sıfırlanacağına gəldikdə isə infeksionist deyib ki, virusun birdən-birə tamamilə yoxa çıxması mümkün deyil:** "Az-az da olsa yoluxmalar davam edəcək. Hətta növbəti payız-qış mövsümündə koronavirusa yoluxma sayında müəyyən artımlar qeydə alınacaq. COVİD-19 da qrip kimi bizim həyatımızda daimi olaraq var olacaq və mövsümündən asılı olaraq endemik hal alacaq. Çin, Tayvan kimi ölkələrdə pandemiya narahatlığı hələ də aktual olsa da, Azərbaycan da daxil digər ölkələrdə koronavirus pandemiyası bitib".

**Şəymən**



# Böyük inam və etimad

## Ulu Öndər Heydər Əliyev Azərbaycanda dövlət gənclər siyasətinin banisidir

**“Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir”. ”Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir”.**

Bu kəlamların müəllifi Ulu Öndər Heydər Əliyevdir. Məlumdur ki, gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı anlayan və bunun həyata keçirilməsi üçün lazımi tədbirləri görən şəxslərdən biri Heydər Əliyev idi. Ümummilli Lider ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dölət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi. Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq. Ümummilli Lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmışdı. Minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdi. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdı. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdu. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclər də onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər. Düzdür, 1988-ci ildən 1993-cü ilə qədər ölkə gəncliyi ictimai-siyasi proseslərdən kənarda qalmışdı, onun potensialı lazımınca qiymətləndirilmirdi. Lakin, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra bu vəziyyət kökündən dəyişdi. Belə bir məqamda hakimiyyətə qayıdan Ümummilli Liderimiz Heydər Əliyev ilk görüşünü məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun “Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir” -sözləri hər kəsin həyat devizinə çevrildi. Ulu Öndərin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı. İstedadlı gənclərə diqqət və qayğını artırmaq üçün H.Əliyevin “Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında” 6 dekabr 1999-cu il tarixli və ”Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında” 22 iyun 1996-cı il tarixli fərmanları bu qayğının təcəssümüdür. 2002-ci il 9 aprel tarixində “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Bu Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanun milli dövlətimizin və unudulmaz Prezidentimiz Heydər Əliyevin gənclərə verdiyi yüksək dəyəri əks etdirməkdədir.

**“İslahatçı Gənclər” İctimai birliyinin sədri gənc fəal Fərid Şahbazlı ”Şərq”ə açıqlamasında bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanda dövlət gənclər siyasətinin banisidir. Gənc fəal vurğulayıb ki, məhz onun hakimiyyətə gəlişindən sonra Azərbaycanda gənclərlə iş üzrə mərkəzi icra hakimiyyəti orqanı olan Gənclər və İdman Nazirliyinin yaradılması, gənclərlə bağlı çoxsaylı forumların keçirilməsi və Ümumilli Liderin tövsiyələri əsasında qanunvericilik bazasının möhkəmləndirilməsi, sərəncam və fərmanların verilməsi reallaşıb:** ”Ulu Öndər öz çıxışlarında dəfələrlə gənclərə olan inam və etimadını dilə gətirib. Qeyd edib ki, o, hər zaman gənclərə güvənir, gənclər də daim ona etibar edə bilər. Ümummilli Liderin Azərbaycan gənclərinə olan xüsusi münasibəti onun ikinci dəfə hakimiyyətə gəldiyi dövrü əhatə etmir. Heydər Əliyev SSRİ-də rəhbər vəzifələr tutduğu zamanlarda Azərbaycan gənclərinin təhsil məsələsinə, xüsusən, xarici ölkələrdə təhsil almasına önəm verirdi. Baxmayaraq ki, bu, həmin dövrdə olduqca çətin proses idi. Ulu Öndər gənclərin orduya cəlb edilməsində, vətənpərvər ruhda yetişdirilməsi istiqamətində də ciddi təşəbbüslər göstərib, mühüm addımlar atıb. Məlumdur ki, sovet imperiyası Azərbaycan gənclərinin hərb sənətinə yiyələnməsinə imkan vermir, müxtəlif metodlarla buna maneçilik törədirdi”.

**F.Şahbazlı bəyan edib ki, Heydər Əliyev Azərbaycan gənclərinin digər sahələrlə yanaşı, hərbi sahədə də təmsil olunmasına, öz sözünü deməsinə nail oldu:** ”Böyük çətinliklər hesabına ”Naxçıvanski” adına hərbi məktəb yaradıldı. Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə gənclərin dövlət qurumlarında, idarəetmə sahəsində iştirakına xüsusi diqqət yetirirdi. Məhz onun ölkəyə rəhbərliyi dönəmində xeyli sayda gənc yüksək vəzifəyə təyinat almışdı. Həmçinin, Yeni Azərbaycan Partiyasının idarəetməsinə xeyli gənc cəlb olunmuşdu. Bütün bunlar Heydər Əliyevin gənclərə və gənclər siyasətinə göstərdiyi böyük diqqətin və qayğının təzahürləri idi. Sevindirici hal ondan ibarətdir ki, bu siyasət dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub və bir model kimi dünya ölkələri tərəfindən öyrənilir”.

**İsmayıl Qocayev**

# Təxribat meydanıdır

## Sosial şəbəkələrə ciddi “əl gəzdirilməlidir”

**Rəşad Məcid:** “Həmin adamlar tapılmalı və hüquq-mühafizə orqanları tərəfindən cəzalandırılmalıdır”

**Fərid Pərdəşünas:** “Geniş tərkibli araşdırma aparılmalıdır”





**Millət vəkili Fazil Mustafa evinin önündə sui-qəsdə məruz qalıb. Parlamentarinin güllələnməsinin ardından isə bəzi təxribatçılar açıq şəkildə ”yaxşı oldu”, ”ölməli idi” kimi statuslar paylaşıblar.** Sual yaranır ki, paylaşım edənlər bizə terrorçularla bağlı ipucu vermirmi? Burdan yola çıxaraq terrorun arxasında dayanan şəbəkəni ifşa etmək olarmı? Ümumiyyətlə, onlara qarşı hansı addımlar atılmalı və necə tapılmalıdırlar?

**Məsələyə münasibət bildirən Mətbuat Şurasının sədri, ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid qeyd edib ki, bu tip status yazan insanlar hüquq-mühafizə orqanları tərəfindən tapılmalıdır:** ”Bu şəxslərin əsas məqsədi cəmiyyət arasında çalxalanma yaratmaqdır. Onlar yalnız saxta profillərlə təxribat yaradırlar. Belə şəxsləri maarifləndirmək isə mümkün deyil. Ona görə də həmin adamlar tapılmalı və hüquq-mühafizə orqanları tərəfindən cəzalandırılmalıdır”.

**”Technote” media şirkətinin təsisçisi, texnobloqer Fərid Pərdəşünas isə deyib ki, bu şəxslərin feysbuk vasitəsilə tapılması mümkün deyil:** ”Çünki feysbuk istifadəçilərinin məlumatlarını və İP ünvalarını gizli saxlayır. Onları yalnız adları, soyadları və profil şəkilləri vasitəsilə tapmaq mümkündür. Yəni hüquq-mühafizə orqanları geniş tərkibli araşdırma aparmalıdır. Saxta profillərlə bu tip status yazan şəxslərə cəza verilməsi isə çətin məsələdir”.

**Nihat Müzəffər**

# Naxçıvan qırmızı xətdir!

## İran qarşısında Türkiyəni görəcək



**”Naxçıvandakı korpus Azərbaycanın ən güclü ordu hissələrindən biridir”.**

**Bu sözləri ”Şərq”ə tanınmış jurnalist, Ovqat.com” saytının baş redaktoru Heydər Oğuz İranın Naxçıvanla sərhədə hərbi texnika yığmasından danışarkən deyib. Həmkarımız diqqətə çatdırıb ki, Muxtar Respublikanın ən böyük müdafiəçisi Türkiyədir:**

”Qardaş ölkə ilə sərhəddir. Naxçıvan Türkiyəyə də maraqlıdır. Muxtar Respublikanın qorunması rəsmi Ankaranın da milli dövlət maraqlarına uyğundur. Bildiyimiz kimi, Türkiyə Naxçıvanı da özünün Misaki Milli sərhədləri daxilinə salıb.

Yəni Naxçıvan ərazisinə hər hansı müdaxilə olunarsa, qardaş ölkə mütləq öz cavabını, reaksiyasını verəcək. Hesab etmirəm ki, İran orada güc nümayişindən başqa hansısa addım atsın, bir səhvə yol versin. Məqsəd Azərbaycan və Türkiyəyə hədə-qorxu gəlməkdir. Rəsmi Tehran düşünür ki, zəlzələ kimi faktorlar qardaş ölkəni zəiflədib. Cənub qonşumuz güclü vəziyyətdə olduğunu zənn edir. Ona görə də Naxçıvana təhdidlər yağdırır. Lakin inanmıram ki, o dərəcədə ağılsız bir hərəkətə yol versin”.

*Qeyd edək ki, İran Naxçıvanla sərhədə hərbi texnika yeridir. Məlumata görə, İran hökuməti Qərbi Azərbaycan əyalətinin Poldəşt şəhərinə çox sayda silah-sursat, 280-300 ədəd hərbi maşın toplayıb. Sərhəd yaxınlığına minə yaxın hərbçinin yerləşdirildiyi bildirilib.*

**Sucayət**

# Putini Ermənistanda həbs etmək asan məsələ deyil

## Çünki parlamentdə müxaliflərin, rusyönlü deputatların sayı kifayət qədərdir




**Rusiya hökuməti Prezident Vladimir Putinin həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) yurisdiksiyasını qəbul edən Ermənistana sərt xəbərdarlıq edib. Xatırladaq ki, martın 24-də Ermənistan Konstitusiya Məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsi (BCM) haqqında Roma Statusunda təsbit olunmuş öhdəlikləri konstitusiyaya uyğun hesab edib.**

Saziş Ermənistan Parlamenti tərəfindən ratifikasiya edilməlidir. Bundan əvvəl Beynəlxalq Cinayət Məhkəməsi Rusiya Prezidenti Vladimir Putinin həbs edilməsi barədə order çıxarıb. BCM-nin qərarına əsasən, Putin məhkəmənin qərarını tanıyan ölkələrin ərazisində olan zaman həbs olunmalıdır. Rəsmi Moskva BCM-nin məlum qərarını tanımadığını, bu qərarın Rusiya Federasiyası üçün əhəmiyyətsiz olduğunu açıqlayıb. Putinin mətbuat katibi Dmitri Peskov deyib ki, Ermənistanın Konstitusiya Məhkəməsi Roma statusunun ölkə Konstitusiyasına uyğunsuzluğu barədə qərar qəbul edib. Qeyd edək ki, Ermənistan bu statutu 1998-ci ildə imzalasa da, indiyədək ratifikasiya etməyib. 2004-cü ildə Ermənistanın Konstitusiya Məhkəməsi bu sənədi ölkə Konstitusiyasına zidd adlandırıb. Daha sonra Konstitusiyaya iki dəfə düzəliş edilib və bununla bağlı Nikol Paşinyan hökuməti məsələni yenidən qaldırıb. Yəni hazırda Ermənistanın qarşısında Məhkəmənin yurisdiksiyasının tanınması üçün heç bir maneə yoxdur. Erməni deputat Qagik Melkonyan da deyib ki, Putin ölkəyə gələrsə, Ermənistan onu həbs etməli olacaq. Onun sözlərinə görə, Roma Statusu ratifikasiya olunarsa, İrəvan bunu etməli olacaq: ”İrəvana səfər edəcəyi təqdirdə Rusiya dövlətinin başçısı həbs oluna bilər”.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov ”Şərq”ə bildirib ki, Ermənistanın bu statusu təsdiq etməsi ondan xəbər verir ki, İrəvan hökuməti Qərblə əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır. Analitikin sözlərinə görə, Ermənistan tərəfi yaxşı başa düşür ki, əgər Roma statusu Parlamentdə ratifikasiya olunarsa və hökumət rəsmən tanıyarsa, Rusiya ilə əlaqələr çox ciddi zərbə alacaq:** ”Rusiya ultimatum xarakterli açıqlama verib. Amma Ermənistan tərəfində ratifikasiya ilə bağlı fikirlər səslənirsə, deməli, Paşinyan hökumətinin Qərbə meyillənməsi strategiyası dərinləşməkdədir. Ancaq düşünürəm ki, indiki məqamda Roma statusunu Ermənistana təsdiqlətmək heç də asan məsələ deyil. Çünki Parlamentdə müxaliflərin, rusyönlü deputatların, ”Qarabağ klanı”na yaxın olanların sayı kifayət qədərdir. Onların hamısı birmənalı şəkildə hökumətə qarşı addım atacaqlar. Problem ondadır ki, Paşinyan komandasının tərkibində də rusiyayönümlü şəxslər var. Hakimiyyətdə olanların hamısı qərbyönlü deyil. O baxımdan Kreml müəyyən təzyiqlərlə Roma statusu məsələsini uzada bilər. Ermənistan özü də sənədin təsdiqlənməsini müəyyən dövrədək təxirə sala bilər. Ən azından Rusiya-Ukrayna müharibəsinin nəticəsi tam aydınlaşanadək prosesi yubatmağa çalışar. Lakin Qərb həmin qərarın qüvvəyə minməsində maraqlıdırsa, gec-tez Ermənistanı onu təsdiqləməyə məcbur edəcək. Paşinyanı seçim qarşısında qoyaraq, ya Rusiya, ya Qərb deyə bilərlər. Rusiyanın reaksiyasının necə olacağı isə qərardan sonra bəlli olacaq”.

**İsmayıl Qocayev**



**Son günlər Azərbaycan daşınmaz əmlak bazarında mənzillərin satış qiymətində bahalaşma müşahidə olunur. Mövzu ilə bağlı ”Şərq”ə danışan daşınmaz əmlak üzrə ekspert Ramil Osmanlı bildirib ki, bu, son 1 ay ərzində, yəni fevral ayının ikinci on günlüyündən başlayıb. Lakin Novruz bayramına qədər olan dinamik qiymət dəyişmələri bayramdan sonra demək olar ki, dayanıb:**

# İlin sonuna qədər evlər çox bahalaşmayacaq

## Hazırda əmlak bazarında sabitlik hökm sürür

”Bu yaşanan dinamik qiymət artımına ən başlıca səbəb həmin dövrdə ipoteka kreditlərinin verilməsi ilə bağlı yaşanan aktivliyin müşahidə olunmasıdır. İndi yəqin ki, biz əvvəlki kimi dinamik yox, amma nisbi də olsa qiymət artımlarının davam edəcəyini müşahidə edəcəyik”.

Ekspert qeyd edir ki, Türkiyədə baş verən zəlzələlərin Azərbaycanın əmlak bazarındakı qiymətlərə təsirinin olmasını düşünmək düzgün yanaşma olmazdı: ”Düzdür, müəyyən psixoloji məqamlar ola bilər. Xüsusilə də ölkə ərazisində bu sahədə fəaliyyət göstərən mütəxəssislərin regionda seysmik vəziyyətin ürəkaçan olmamasını deməsi, baş verən zəlzələlərin başqa regionlarda, eyni zamanda Azərbaycanda da başvermə ehtimalı ilə bağlı açıqlamaları oldu. Bunlar qısa bir müddətdə təsirli oldu. Amma Azərbaycan bazarında sözügedən dövrdə əmlak bazarının, xüsusilə də mənzil bazarının ən aktiv dövrü hesab edilir. Bu dövrdə baş verən qiymət artımlarını təbii qəbul edirəm”.

**Ekspert həmçinin vurğulayıb ki, Azərbaycan bazarında qiymət dəyişmələrini proqnozlaşdırmaq bir qədər çətin olur:** ”Çünki burada iqtisadi faktorlarla yanaşı, inzibati təsirlər də var. İnzibati təsirlər bəzi hallarda iqtisadi amillərdən daha yüksək təsiretmə gücünə malik olur. Ola bilər ki, sabah hökumət bu sahədə hər hansı bir ciddi qərar qəbul etsin və bazarda proseslər tamamilə əks istiqamətdə dəyişsin. Lakin düşünürəm ki, bu ilin sonuna qədər hər hansı bir inzibati təsir olmasa, qiymət artımları indiki şəkildə davam edəcək. Yəni aylıq, hardasa, 1-2 faiz civarında qiymət artımları müşahidə olunacaq”.

**Nihad Kərimli**

YURD SÖHBƏTİ

# "Övladlarımın 3-ü də Xankəndi doğumludu"



## Həvva Məmmədova: “İndi də şəxsiyyət vəsiqələrində həmin ünvandır”

**O, Ulu Öndər Heydər Əliyevin Qarabağda (Sovet illərində Azərbaycanımızın bu bölgəsi Arana, Dağa bölünüb adına ”Dağlıq Qarabağ” deyilsə də, cənab Prezident İlham Əliyevin ”Azərbaycanda Dağlıq Qarabağ adlı inzibati ərazisi artıq yoxdur”, tarixi bəyanatına əsaslanaraq ”Dağlıq Qarabağ” kəlməsini işlətmirik - M.R. ) həyata keçirdiyi nəhəng işlərin, erməni millətçiliyinin, separatizminin, terrorunun... hər cür əclaflıqlarının qarşısının alınmasında gərgin fəaliyyətinin canlı şahididir. Biz onunla bir neçə dəfə Xankəndi barədə söhbət etmişik. Çünki Xankəndiyə qəlbiylə və əməliylə bağlı xanımdır. Səhifədə foto da varsa, söhbətin kimdən getdiyini əziz oxucumuz bilir demək; Həvva Məmmədova.**



*Həvva xanım Azərbaycan insanına daha çox millət vəkili kimi tanışdır. Hazırda millət vəkili olmasa da, bu ad vaxtilə ona çox yaraşıb (fəaliyyətinə görə) deyə, indi də daha çox belə tanınır. Halbuki Həvva xanımın təqdimatı hazırda ölkənin ictimai-siyasi həyatında tutduğu mövqe baxımından xeyli əhatəlidir. Vəzifələri arasında bizcə, müəllimliyi ilk sıradadır. Müəllim cəmiyyətin sütunlarından biridir. Həvva xanımsa Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müəllimi, tarix elmləri doktoru, professordur. 6 kitab, o cümlədən ”Xocalı: şəhidlər, şahidlər” kitabının, ”Dağlıq Qarabağ: Həqiqətlər, yalanlar” sənədli filminin müəllifidir. Gəncliyi, ömrünün böyük bir hissəsi Qarabağımızın qədim məskəni Xankəndi ilə bağlıdır. Həvva xanımla indi ekoloqlarımızın qapısında keşik çəkdiyi Xankəndi barədə danışdıq. Xanım professorun ilk cümləsi bu oldu ki, Xankəndi özünün yüksəliş, inkişaf mərhələsini məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu illərdə yaşayıb:*

**"Həyat yoldaşım mitinqlərə gedirdi, dinləyirdi, gəlib deyirdi ki, vəziyyət yaxşı deyil. 1988-ci ilin sentyabrında ermənilər azərbaycanlıların 60 evini yandırdılar"**



- Bunu tam səmimiyyətlə və tarixi faktlara əsaslanaraq bildirirəm ki, Xankəndi, eləcə də ümumən Qarabağ özünün yüksəliş, inkişaf mərhələsini məhz Ulu Öndər Heydər Əliyev ozamankı sovet Azərbaycanında Mərkəzi Komitənin birinci katibi vəzifəsində olduğu illərdə yaşayıb. 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun Xankəndi filialı açıldı. 1973-cü ildə isə filial müstəqil institut oldu. Bu, məhz Ulu Öndərin iradəsinin nəticəsi idi. Heydər Əliyev Qarabağda təhsilin inkişafına böyük əhəmiyyət verirdi, istəyirdi ki, Qarabağın azərbaycanlı əhalisi ali təhsil alsın. Hər kəs Bakıya ali təhsil ardınca gələ bilmirdi. Hər kəs də ali məktəbə qəbul oluna bilməzdi. Xankəndidə Pedaqoji İnstitut fəaliyyətə başladıqda isə qarabağlı gənclər ali təhsil almaq imkanı əldə etdilər. Qarabağın hər tərəfindən - Ağdamdan, Şuşadan, Bərdədən bu instituta təhsil almağa gəlirdilər. Pedaqoji İnstitut Aran Qarabağla Dağlıq Qarabağı birləşdirən bir körpü idi. Mən özüm də Bərdənin Xanərəb kəndində anadan olmuşam, orta təhsilimi başa vurduqdan sonra Xankəndi Pedaqoji İnstitutuna daxil oldum. Tarix fakültəsinə. 1980-1990-cı illərdə Xankəndi şəhərində orta məktəbdə müəllim işləmişəm. Xankəndidəki həyatın tam mərkəzində idim. Mən orda təhsil almasaydım, bu gün Həvva Məmmədova ola bilməzdim.

**- Həvva xanım, Xankəndidəki həyatın mərkəzində olmaq həm də orada məskunlaşmış ermənilərin davranışlarını yaxından izləmək imkanı deməkdir...**

- Əlbəttə. Biz gənc idik, görürdük ki, ermənilər azərbaycanlıları sıxışdırmağa çalışır, bizə dost münasibət göstərmirdilər. Sanki onlar bizim ərazimizə sonradan gəlməyib, ”yad” olan bizik. Bilirsiz, Qarabağın rahatlığı ermənilərin ora köçürülməsiylə pozulub. Qarabağın azərbaycanlı əhalisi təkcə Birinci Qarabağ müharibəsi zamanı didərgin, köçkün düşməyib ki! Qarabağlılar tarixdə bir neçə dəfə köçkünlüyə məruz qalıb. 1905, 1919-20, hətta 1921, 1927-ci illərdə. 1937-ci ildə 4 min azərbaycanlı Qarabağdan qonşu rayonlara köçürülüb. 2 ay sonra 5 min erməni ailəsi Qarabağa yerləşdirilib. Belə bir etnik təmizləmə siyasəti aparılıb illərlə. Hansı ki biz bunun təzahürünü 1988-92-ci illərdə də gördük. Azərbaycanlılar həm tarixi vətənləri Qərbi Azərbaycandan qovuldular, didərgin salındılar, həm də Qarabağdan köçkün düşdülər. Ermənilər Xankəndidə azərbaycanlıların qeydiyyata düşməsini əngəlləyirdilər. Ev tikməyə icazə vermirdilər. Hansısa ailədə övlad dünyaya gəlirdi, onu da qeydiyyata almaq istəmirdilər. Mən bu iyrənc siyasətin şahidi olmuşam. Əhalinin siyahıya alınmasında da erməni millətçiləri saxtakarlığa əl atırdı. Erməni əhalisinin sayını çox, azərbaycanlıların sayını az göstərirdilər. Ulu Öndər çıxışlarında xatırladırdı ki, dövlət təhlükəsizlik orqanında işlədiyi illərdə, həm də KP MK-nın katibi olduğu zaman Qarabağın azərbaycanlı əhalisinin yaşayışı ilə maraqlanırdı. Heç kəsə sirr deyil ki, məhz Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində Qarabağda erməni separatizminin qarşısı alınırdı. Ermənilər Heydər Əliyevdən qorxurdular, çəkinirdilər. Onun milli insan olduğunu bilirdilər, milli təəssübkeşliyinə bələd idilər. Nahaq demirəm ki, Qarabağın yüksəlişi Heydər Əliyevin hakimiyyətdə olduğu illərdir. Xankəndidə təkcə Pedaqoji İnstitut fəaliyyətə başlamadı. Xankəndidə Tibb Texnikumu açıldı. Rəhmətlik professor Zəhra Quliyeva (Qadın Problemləri üzrə Dövlət Komitəsinin keçmiş sədri) danışırdı ki, Heydər Əliyev ona zəng edib ən bacarıqlı, savadlı həkimləri Xankəndiyə göndərməsini tapşırırmış.

**- Niyə Zəhra Quliyevaya?**

- O, həmin illərdə Azərbaycan Tibb İnstitutunun rektoru olub (1972-83).

- ...

- Ali məktəbi bitirənlər axı təyinatla bölgələrə göndərilirdi. Heydər Əliyev də tapşırırmış ki, savadlı kadrları Xankəndiyə göndərin. İstəyirdi ki, Xankəndidə milli kadrlarımız çox olsun, azərbaycanlılara öz həkimlərimiz xidmət etsin. Heydər Əliyev Qarabağın azərbaycanlı əhalisinin qayğısına qalırdı. Xankəndidə dram teatrı, muzeylər fəaliyyət göstərirdi. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolu çəkildi. Heydər Əliyev dəmir yolunun açılışında şəxsən iştirak edib. Mən o zaman tələbə idim, biz tələbələr də açılışa getmişdik. Xankəndidə böyük müəssisələr, fabriklər vardı. Qırmızı mərmər çıxarılırdı, xaricə satırdılar. İnkişaf edən təkcə Xankəndi deyildi. Həmin illərdə Ağdamda, Şuşada böyük tikintilər həyata keçirildi. Vaqifin məqbərəsi açıldı... Yəni Qarabağın hər daşında, qayasında Heydər Əliyevin izi var. Nə qədər ki, Heydər Əliyev KP MK-nın birinci katibi idi, ermənilər baş qaldıra bilmirdilər. Terrorçuluqdan heç vaxt əl çəkməyiblər. Amma iri miqyasda planlar həyata keçirə bilmirdilər, çünki Heydər Əliyev qarşısını alırdı. Ulu Öndərin öz sözləridir ki, 30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlayıb, ancaq qarşıları alınıb. Heydər Əliyev deyirdi ki, özü şəxsən bunların şahididir və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısı olub. 1966-cı ildə İrəvan şəhərində qeyri-qanuni ”Erməni gənclər ittifaqı” adlı təşkilat yaradılıbmış. Özlərinin proqramı, nizamnamələri vardı. Arxiv materiallarında qeyd olunur ki, həmin təşkilatın iki nümayəndəsi 1965-ci ilin noyabr ayında Qarabağa (ozamankı Martuni rayonuna) gələrək orada ezamiyyətdə olan DQMV mərkəzi kitabxanasının metodisti Saakyanla görüş keçiriblər. Saakyana həmin təşkilatın 4 nüsxədən ibarət proqram və nizamnamələrini verib bildiriblər ki, bundan 200 nüsxə çoxaldaraq Qarabağda yaşayan ermənilərə paylasın, eyni zamanda təşkilatın yerli nümayəndəliyini yaratsın.

**- Həvva xanım, siz bir dəfə erməni uşağının Xankəndidə öldürülüb məktəbin həyətinə atılmasından danışmısınız.**

- Bəli, bu hadisə 1967-ci ildə olub. Ulu Öndər Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin sədri vəzifəsində çalışdığı vaxt. Erməni uşağını öldürüb məktəbin həyətinə atmışdılar. Söz yaymışdılar ki, guya onu azərbaycanlılar öldürüb.

**- O məktəb Xankəndidə idi?**

- Yox, kənd məktəbi idi. Bu hadisə barədə DTX arxivlərində materiallar var. Ermənilər guya bu qətldə şübhəli şəxs qismində saxlanan məktəbin direktoru Ərşad Məmmədovu və əmisi oğlunu məhkəmə zalından oğurlayıb öldürmüşdülər. Sürücü isə ”konvoy” maşınında yandırılmışdı. O vaxt bu hadisə ölkədə böyük səs-küyə səbəb oldu. Heydər Əliyev Qarabağa gəldi, şəxsən onların dəfnində iştirak etdi. Və orada nitq söylədi. Qətiyyətlə dedi ki, bu qətli törədənlər mütləq tapılacaq və cəzalandırılacaq. Elə də oldu. Erməni təxribatının icraçıları olan 20 nəfər milliyyətcə erməni şəxs həbs edildi. Onlardan 5 nəfərə ölüm hökmü kəsildi, 14 nəfər isə müxtəlif müddətlərə azadlıqdan məhrum edildi. İşin istintaqını Heydər Əliyev şəxsən özü nəzarətə götürmüşdü. Hətta bu məqsədlə Xankəndiyə gedərək 15 gün orada qalıbmış. Görürsünüz, erməni təxribatları heç vaxt ara verməyib. Nələri yox idi onların? Dediyim kimi, Xankəndi inkişaf etmiş, hər cür iqtisadi imkanları olan şəhər idi. Ermənilərin yaşadığı kəndlərə qaz da çəkilmişdi. İşıq, su, hər şeyləri vardı. Xankəndidən 15 kilometr şimal-qərbdə iki kənd - Kosalar və Ballıca var. Kosalar - qayınatamın kəndiydi, azərbaycanlı kəndidi, Ballıcada ermənilər yaşayırdı. Ballıcaya qaz çəkilmişdi, amma Kosalara yox.

**- Siz Xankəndini nə zaman tərk etdiniz?**

- 1988-ci ildə Xankəndidə separatizm meyilləri gücləndi, fevral ayında ilk mitinq təşkil etdilər, Azərbaycan əleyhinə şüarlar səsləndrməyə başladılar. Ermənistana birləşmək ”arzularını” açıq şəkildə dilə gətirdilər, biz azərbaycanlıların müsibətli günləri başladı. Həyat yoldaşım mitinqlərə gedirdi, dinləyirdi, gəlib deyirdi ki, vəziyyət yaxşı deyil. 1988-ci ilin sentyabrında ermənilər 60 evi yandırdılar. Azərbaycanlıların evlərini. Biz Kərkicahana köçdük. 1990-cı ilədək Kərkicahanda yaşadıq. Sonra başqa bölgələrdə də məskunlaşdıq. 3 ay Bərdədə qaldıq. Çox zülümlər çəkdik... Nəhayət Bakıya gəldik, mən Sosial İdarəetmə və Politologiya İnstitutuna daxil oldum... Sonrası da bilirsiniz...

**- Həvva xanım, həyat yoldaşınızla Xankəndidə tanış olmuşdunuz?**

- Bəli.

**- Övladlarınız...**

- 3 övladım var, 5 nəvəm. Övladlarımın 3-ü də Xankəndi doğumludu. İndi də şəxsiyyət vəsiqələrində Xankəndi ünvanıdır. Böyük oğlum hərbçidi.

**- Eləmi, bilmirdim...**

- Suqovuşanın alınmasında oğlumun komandir olduğu briqada iştirak edib.

**- A, doğrudan?**

- Bəli, ”Qarabağ” ordeni ilə təltif edilib.

**- Nə yaxşı. Halal olsun! Həvva xanım, bayaq Kosalar kəndinin adını çəkdiniz, dediniz, qayınatanızın kəndidi. Üzr istəyirəm, siz əslən bərdəlisiniz?**

- Xeyr. Anam şuşalı qızıdı. Atamsa Qərbi Azərbaycanın Sisyan rayonundan.

**- Hardan hara, Həvva xanım...**

- Atamgil, yadımda qalan budu ki, 1918-20-ci illərdə Naxçıvana köçüblər. Sonra Qarabağa - Ağdama gəliblər, daha sonra Bərdədə yaşamağa başlayıblar.

**- Ananızla Bərdədə tanış olub?**

- Yox, atam sürücü olub. Şuşa yolunda anamı görüb... Həyat yoldaşımın da atası Kosalar kəndindəndi.

**- Bütün Azərbaycanı əhatələyirsiniz ki!**

-Elədi...

**- Çox sağ olun, Həvva xanım, maraqlı söhbətə görə. Təşəkkür edirik.**

- Siz də sağ olun.

**Söhbətləşdi: Məlahət Rzayeva**



# Müharibə davam etdikcə tərəflərin gücü tükənir

## ABŞ-Rusiya gərginliyinin aradan qalxacağı gözlənilmir

**”ABŞ-la dialoqun bərpası üçün ilkin əlamətlər hələ ki görsənmir”.**

**Bunu Rusiyanın Xarici işlər naziri Sergey Lavrov deyib.**

Nazirin sözlərinə görə, rəsmi Vaşinqton Moskva ilə dialoqu bərpa etmək üçün dövlətlərarası münasibətlərin sivil prinsiplərinə qayıtmalıdır: ”Amma bunun əlamətləri hiss edilmir”.

Qeyd edək ki, Lavrov daha əvvəl ABŞ-ın bütün sərhədləri aşdığını söyləmişdi.

**Ukraynada müharibə başlayandan etibarən Rusiya ilə Qərb arasındakı gərginliyin artdığını deyən siyasi şərhçi Kənan Novruzov bildirib ki, Kremllə Ukrayna məsələsində əsas dirijorun ABŞ olduğunu yaxşı başa düşür:**

”Ümumiyyətlə rəsmi Vaşinqton Ukrayna vasitəsilə Moskvanı sıxışdırmağa davam edir. Bu isə Rusiyada Amerikaya qarşı qəzəb yaradır. Çünki Kreml ”tələyə düşdüyünü” yaxşı anlayır”.

**Analitik qeyd edib ki, əslində müharibə Qərblə Rusiya arasında gedir:** ”Burada isə Qərbin atdığı addımlar daha təqdirəlayiqdir. Ona görə ki, Rusiya Ukrayna müharibəsi ilə bütün sərhədləri keçib. Başqa bir suveren dövlətin işlərinə qarışmaq yolverilməzdir. Bundan sonra münasibətlərin daha da gərginləşəcəyini düşünürəm.

Hətta bu yaxınlarda Lavrov bildirdi ki, ABŞ bütün sərhədləri aşır. Onun ardınca isə Putin ABŞ-ın bütün qırmızı xətləri keçdiyini söylədi. Yəni artıq Rusiya yaxşı başa düşür ki, o diktə edən tərəf deyil və bu cür bəyanatlarla daxili auditoriyanı susdurmağa çalışır. Yaxın perspektivdə ABŞ-Rusiya gərginliyinin aradan qalxacağı gözlənilmir, hətta daha da artacaq. Digər tərəfdən, müharibə davam etdikcə iki tərəfin də gücü tükənir.

Bu isə Amerikanın gələcəkdə rolunun artması deməkdir. Əgər güc tükənirsə, ya Ukraynaya daha çox dəstək vermək lazımdır, ya da tamamilə kənara çəkilmək lazımdır. ABŞ-nin yaxın gələcəkdə bu iki seçim arasında qalacağı labüddür”.

**Nihat**

# Əvvəlcə diplom almalıdır

## Tələbənin professorlara rəhbərlik etməsi etik cəhətdən doğru deyil

**Azərbaycan Dillər Universitetinin (ADU) Təhsil-2 fakültəsinin III kurs tələbəsi Jalə Eyvazovanın dekan müavini təyin olunması təhsil ictimaiyyətində birmənalı qarşılanmayıb.**



***“3-cü kursda oxuyan bir tələbənin dekan müavini təyin olunması qanunvericiliyin tələblərinə ziddir”***

Sosial şəbəkələrdə gedən müzakirələrdə bu təyinatı təqdir edənlərlə yanaşı, bu təyinatı qanunsuz adlandırıb universitet rəhbərliyini qınayanlar da var.

ADU-nun Mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı isə ”Report”a açıqlamasında deyib ki, sözügedən tələbənin oxuduğu fakültənin dekan müavini təyin olunması ictimai əsaslarla həyata keçirilib.

İndiyə qədər ADU-da bu cür təcrübə olmadığını vurğulayan C.Zeynallının sözlərinə görə, rektor, akademik Kamal Abdulla qərara gəldi ki, göstəriciləri yüksək olan, tələbələr arasında nüfuz qazanmış, tədbirlərdə fəal olan tələbəni qiymətləndirib, dəyərləndirsin: ”Həmçinin onun gələcək idarəçilik təcrübəsinə öz töhfəsini vermək üçün bu imkanı yaratsın. Bu addım Jalənin həm müəllimləri, həm universitet kollektivi, həm də tələbə yoldaşları tərəfindən rəğbətlə qarşılandı. Bu gün o, həm tələbə, həm də dekan müavini kimi çox uğurla fəaliyyət göstərir. Mənə elə gəlir ki, artıq dördüncü kursu bitirəndə Jalənin bu istiqamətdə geniş təcrübəsi olacaq və gələcəkdə universitet onun potensialından rahat şəkildə istifadə edə biləcək”.

C.Zeynallı müəllimlərin tələbə-dekan müavininə dərs deməsi zamanı maraqlar toqquşmasının ola biləcəyi ehtimalı ilə bağlı deyib ki, bundan söhbət gedə bilməz:

”Dərslərə mane olmaq məsələsinə gəlincə, bu günə qədər Jalənin vəzifəsini yerinə yetirməsi və dərslərində hər hansı bir problemin yaranması ilə bağlı məlumat yoxdur. Düşünürəm ki, o, hər ikisinin öhdəsindən uğurla gələcək”.

**Təhsil eksperti Kamran Əsədov isə ”Şərq”ə açıqlamasında üçüncü kurs tələbəsinin dekan müavini təyin olunmasına tənqidi yanaşdığını deyib:**

”Ölkəmizdə ”Ali təhsil haqqında” qanun olmasa da, Milli Məclis tərəfindən təhsil işçilərinin vahid ştat cədvəli tərtib olunub. Bu cədvəldə müvafiq vəzifələrin tutulması üçün öhdəliklər var ki, heç bir halda sui-istifadə hallarına yol vermək olmaz. O cümlədən dekan və dekan müavinlərinin seçilməsi və təyin olunması haqqında əsasnamə də var. Göstəricilərinin yüksək olmasına baxmayaraq 3-cü kursda oxuyan bir tələbənin dekan müavini təyin olunması qanunvericiliyin tələblərinə ziddir. Hansısa bir tələbə universitetdə vəzifə tutmaq üçün təhsilini başa vurmalı və diplom almalıdır. Təhsil alan statusunda olan bir şəxsin təhsilverənlərin idarəetməsində iştirakı mümkün deyil. Tələbənin ən vacib öhdəliyi gündəlik dərs prosesində aktiv iştirak etmək və dövlət tərəfindən standartlaşdırılmış bilik və bacarıqlara yiyələnməkdir. Dekan müavini olmaq üçün isə sadəcə bakalavr yox, magistr dərəcəsi də əsas şərtdir. Söz yox ki, tələbənin yaxşı oxuması müsbət haldır, ictimai işlərdə də fəal çalışırsa, onu alqışlayıram. Kifayət qədər zəngin tərcümeyi-halı var. Onun haqqında oxuyanda sahib olduğu bilik və bacarıqları məndə xoş təəssürat yaratdı. Amma bütün bunlar onun qanuna zidd şəkildə dekan müavini təyin olunmasına bəraət qazandırmır. ADU rəhbərliyi bu addımı gənclərə motivasiya üçün atsa belə, tələbənin elmi dərəcəli müəllimlərə, professorlara rəhbərlik etməsi, ona dərs deməkdə olan müəllimlərə göstəriş verməsi etik cəhətdən də doğru deyil. Bu hal təhsil sistemində qeyri-ciddilik yaradır. Belə çıxır ki, bizim universitetlər tələbəyə təhsil verməkdən çox, təhsil oyunu oynayır”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı



# Sağlam qida sağlam fiziki inkişaf deməkdir

## Qidalar və qidalanma vərdişləri uşaqların psixi və fiziki sağlamlığında açar rolunu oynayır

**Uşaqların fiziki və mənəvi inkişafı üçün sağlam qidalanma mühüm əhəmiyyət kəsb edir. Uşaq orqanizminin hərtərəfli inkişafı və sağlamlığı üçün düzgün və səmərəli qidalanma ən vacib şərtlərdən biridir. Belə ki, uşaqlıq dövrü insan orqanizminin sonrakı fiziki, əqli inkişafında xüsusi əhəmiyyətə malikdir. Araşdırmalara görə, meyvə və tərəvəz yeyən uşaqların psixi sağlamlığı daha yaxşı olur və bu, onların akademik nailiyyətlərinə birbaşa təsir edir.**

Qeyri-düzgün və nizamsız qidalanma nəticəsində uşaqlar əqli və fiziki inkişafdan geri qalır, eləcə də çəki problemləri ilə qarşılaşırlar ki, bu da gələcəkdə ciddi sağlamlıq problemlərinə yol açır. Xüsusən də zərərli qidalanma vərdişləri uşaqlarda piylənmənin inkişaf etməsində əsas rol oynayır.

İngiltərədə aparılan bir araşdırmada 50 məktəbdə 9000 şagirdin yeməkləri araşdırılıb. Səhər və naharda yeyilən qidalar, uşaqların meyvə-tərəvəz istehlakı da müzakirə olunub. Orta məktəb şagirdləri tərəfindən yeyilən səhər yeməyi və nahar menyuları ilə kurs nailiyyətləri arasında əhəmiyyətli əlaqə aşkar edilib. Xüsusən də orta məktəb şagirdlərindən söhbət gedirsə, tədqiqatın nəticələri daha çox məna kəsb edir. Gündə beş və ya daha çox porsiya meyvə və tərəvəz yeyən uşaqlar psixi sağlamlıq baxımından ən yüksək nəticə əldə ediblər. Norveç Tibb Məktəbindən aparıcı tədqiqatçı professor Ailsa Vilç deyir: ”Biz bilirik ki, zəif psixi sağlamlıq gənclər üçün böyük problemdir və uzunmüddətli mənfi nəticələrə səbəb olur. Məsələn, şəkərli qidalar uşaqların yaddaşına təsir edir.

Uşaqlarda psixi sağlamlığın pisləşməsinin artması səlahiyyətliləri tədbir görməyə vadar edib. İngiltərədə aparılan araşdırmaların nəticələri göstərir ki, uşaq və gənclər həm sosial media, həm də müasir məktəb mədəniyyəti tərəfindən təzyiq altındadır. Qidalanma ilə fiziki sağlamlıq arasında əlaqə bilinsə də, gənclərin psixologiyasına təsiri çox vurğulanmır. Yeniyetmələrin psixi sağlamlıq problemlərinin yetkinlik yaşına qədər davam etdiyi, yetkinlik dövründə görülən bir çox psixi problemlərin isə yeniyetməlik dövründə başladığı məlum bir həqiqətdir.

İngiltərədə aparılan bir araşdırmada orta məktəb uşaqlarının yalnız dörddə biri və ibtidai məktəb uşaqlarının yüzdə 28-i tövsiyə edildiyi kimi gündə cəmi 5 porsiya meyvə və ya tərəvəz yeyir. Orta məktəbdə hər beş uşaqdan biri, ibtidai sinifdə isə hər on uşaqdan biri səhər yeməyi yemir. İngiltərədə vəziyyət belə olsa da, qəbul imtahanına hazırlaşan şagirdlər üçün qidalanmanın nə qədər əhəmiyyətli olduğu göz önünə gəlir.

Bir çox araşdırmalar göstərir ki, yaxşı qidalanma uşaqlarda daha yaxşı zehni bacarığa səbəb olur. Meyvə və tərəvəzlərlə müntəzəm yeməklərin, xüsusən də orta məktəb uşaqları arasında daha yaxşı psixi sağlamlıqla birbaşa əlaqəli olduğu müəyyən edilib. Ənənəvi səhər yeməyi yeyən tələbələr səhər yeməyini yalnız karbohidratlı qidalarla yeyən tələbələrlə müqayisə edilib.

Tədqiqatlara görə, qida dəyəri az olan qidalarla səhər yeməyi qəbul etmək uşaqların psixi-mənəvi sağlamlığına da təsir edir. İngiltərədə aparılan araşdırmada səhər yeməyində ”boş kalori” olaraq xarakterizə edilən enerji içkilərini qəbul edən bir qrup uşağın varlığı da təsbit edilib. Bu içkilərin isə heç səhər yeməyi yeməməkdən daha çox zərəri var. Günorta dərslərinə nahar etmədən qatılan tələbələrin akademik uğurları və zehni performansları da çox aşağıdır.

**Endekrinoloq Aidə Orucovanın ”Şərq”ə açıqlamasına görə, sağlam qida sağlam fiziki inkişafdır. Qidalar və qidalanma vərdişləri uşaqların psixi və fiziki sağlamlığında açar rolunu oynayır:** ”Düzgün və balanslaşdırılmış qidalanma uşaqların sağlamlığını müəyyən edən vacib amillərdəndir. Qida rasionu uşağın əqli qabiliyyətinin, yaddaşının və intellektinin formalaşmasında mühüm rol oynayır. Övladınızın fiziki və zehni inkişafının artmasını istəyirsinizsə, onların qida rasionuna diqqət edin. Balanslı səhər yeməyi beyinin işini gücləndirir, yaddaş və düşünmə qabiliyyətini yaxşılaşdırır, biliyin qavranılmasına da kömək edir.

Bir çox uşağın gündəlik qida rasionunda yüksək miqdarda şəkər, rafinə olunmuş nişasta, asitli içkilər, süni yağlar, qida boyaları, müxtəlif qatqı maddələri və qoruyucu maddələr olur. Bu qidalanma tərzi çox yüksək enerjini əhatə edir və eyni zamanda təməl qida maddələrindən əskik qidalanma sistemi deməkdir. Ölkəmizdə ”abur-cubur” olaraq bilinən, xarici dildə ”junk food” adlanan bu qidaların heç bir qida dəyəri daşımadığı məlumdur. Bu qidalar övladlarımızın öyrənmə bacarıqlarında, psixi hallarında və davranışlarında dalğalanmalara səbəb olur. Zəif qidalanma zəif sağlamlıq deməkdir. Çox zaman hazırlanması və alınması rahat olan hazır qidalarla övladlarımızın sağlamlığını öz əllərimizlə zədələyirik. Bu cür qidalanma ilə bədənimizin və beynimizin yaşamaq funksiyası üçün vacib olan qidaları ya əskik, ya da heç qəbul etmirik”.

**A.Orucovanın sözlərinə görə, uşaqların qidalanması ilə bağlı vacib amillərdən biri də maye qəbuludur. Onların suya olan tələbatı daha çoxdur. Buna görə də uşaqlar gün ərzində kifayət qədər su və maye qəbul etməlidirlər:** ”Xüsusən də piylənmə riskindən qorumaq üçün uşaqların gündəlik qida rasionunda isti duru yeməklərin, meyvə-tərəvəzin olması da şərtdir. Uşaqların qidalanmasında yaşı, fiziki yüklənməsi, əqli gərginliyi və digər amillər mütləq nəzərə alınmalıdır. Bunun üçün uşaqların psixi və fiziki sağlamlıqlarını qorumaq naminə onlara yedirtdiyimiz qidalar haqqında ətraflı məlumata sahib olmalıyıq.

Rafinə olunmuş nişastalı və şəkərli qida övladlarımızın beyin, həzm və immun sisteminə zərər verir. Nəticədə enerji dalğalanmaları, öyrənmə çətinliyi, davranış problemləri kimi vəziyyətlər yaranır. Övladlarımız sızma zeytun yağı əvəzinə hidrogenizə yağlar olaraq bilinən yağlarla hazırlanan qidalar yeyir, rafinə olunmuş, bir çox mərhələdən keçən hazır keks, peçenye və başqa qidalar yeyir. Amma onlara beyninin inkişafı və lazımi funksiyalarını yerinə yetirməsi üçün Omeqa 3 (epa-deha), Omeqa 6 kimi təməl yağlar (esensial yağlar) lazımdır. Bunlar orqanizm tərəfindən istehsal oluna bilmədiyi üçün onları qida yolu ilə almağımız vacibdir. Esensial yağlar üçün ən yaxşı mənbə dəniz məhsullarıdır. Son tədqiqatlar göstərir ki, immun sistemi, ürək və beyin sağlamlığı üçün uşaqlarımıza verdiyimiz Omeqa 3 onların tez oxuma, hesablama, diqqət və hafizələrində olan problemlərinin həllinə kömək edir”.

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

## Ulu Öndərin yolu ilə...





**2023-cü ilin ”Heydər Əliyev İli” elan edilməsi münasibətilə ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil müəssisələrində silsiləli tədbirlər keçirilir. Bu səbəbdən Bakı şəhəri Binəqədi rayonu R.Əliyev adına 3 saylı tam orta məktəbin tarix müəllimi Nigar Məmmədova və Xb sinif şagirdləri ”Ulu Öndərin yolu ilə” şüarı altında aylıq plana uyğun olaraq ardıcıl tədbirlər keçirirlər.**

”Şərq” xəbər verir ki, ilk tədbir 19.01.2023-cü il tarixində keçirilib, aylıq plana uyğun olaraq görüləcək işlər barədə məlumat verilib, şagirdlər arasında iş bölgüsü aparılıb.

20 fevral 2023-cü il tarixində 3 nömrəli tam orta məktəbin tarix müəllimi Nigar Məmmədova və Xb sinif şagirdlərinin iştirakı ilə Ümummilli Liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti haqqında konfrans keçirilib.

Üçüncü aylıq plana uyğun olaraq 27 mart 2023-cü il tarixində növbəti konfrans keçirilib. Azərbaycanın böyük oğlu, Ümumilli Liderimiz Heydər Əliyevin Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə, adət-ənənələrinə göstərdiyi diqqət və qayğıdan söhbət açılıb.

Ümummilli Liderin milli dəyərlərin qorunması və nəsildən nəsilə ötürülməsi üçün gördüyü işlər haqqında geniş məlumat verilib. Hələ 14 iyul 1969-cu il tarixində Azərbaycan SSR-in Mərkəzi Komitəsinin I katibi vəzifəsinə təyin olunduqdan sonra Heydər Əliyevin bu sahədə atdığı addımlardan danışılıb. Ümummilli Lider maddi, mədəni zənginliklərə sahib olan Azərbaycanın həmin vaxta qədər keçmiş İttifaqda sıradan bir respublika, bəzi sosial iqtisadi göstəricilərinə görə isə xeyli geri qalmış respublika kimi təqdim edilməsinə qarşı çıxaraq mühüm addımlar atıb. Zənginliyi lazımi səviyyədə ortaya çıxarmaq, reallıqları düzgün qiymətləndirmək zəruri idi. O cümlədən mədəni mirasımız, ədəbiyyat və incəsənətimiz özünün gerçək himayədarını gözləyirdi. XX əsrin II yarısında Sovet rejimi dövründə bu müşkül, hətta qeyri-mümkün idi. Amma Heydər Əliyev kimi dahi bir şəxsiyyətin bütün bu dəyərlərin qorunması və inkişafında mühüm rol oynaması bugünkü mədəniyyətimizin bünövrəsi oldu.

1993-cü il 15 iyun tarixində xalq Heydər Əliyevin timsalında nəinki öz qurtuluşuna, eyni zamanda parlaq gələcəyinə qovuşdu. Bu tarixi dönüş Azərbaycana əmin-amanlıq, milli birlik, siyasi, iqtisadi, mədəni inkişaf bəxş etdi. Əldə etdiyimiz bütün nailiyyətlərimizə Ulu Ondərin ölkəmizdə nail olduğu dinc şərait səbəb olub.

*Şagirdlər Ulu Öndərin mədəniyyətimizin qorunmasında gördüyü mühüm işlər haqqında məlumat veriblər.*



# Dərmanların qiyməti ucuzlaşa bilər

## Əhliman Əmiraslanov bildirib ki, dərmanların ölkəyə gətirilməsi ilə bağlı bürokratik əngəllər aradan qaldırılmalıdır

**”Dərman istehsalı məsələsində xeyli geridə qalmışıq, mən bununla razıyam. Bildiyimə görə, Ələt Azad İqtisadi Zonasında bir neçə dərman istehsalı müəssisələrinin tikilib istifadə verilməsi nəzərdə tutulub”. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ”Dərman vasitələri haqqında” qanuna təklif edilən dəyişikliyin müzakirəsi zamanı deyib.**

Deputat əlavə edib ki, İsrail və qardaş Türkiyədən, həmçinin digər ölkələrdən məhz bu istiqamətdə mütəxəssislər dəvət olunub. O, hazırda ölkədə istehsal olunan dərman vasitələrinə dərman deməyin lazım olmadığını qeyd edib: ”Bizdə olan dərman istehsalına, sözün düzü, dərman istehsalı demək olmaz. Bunlar tibb üçün lazım olan vəsaitləri istehsal edirlər”.

*Əhliman Əmiraslanov bildirib ki, dərmanların ölkəyə gətirilməsi məsələsi mütləq sadələşdirilməlidir, bürokratik əngəllər aradan qaldırılmalıdır:* ”Hesab edirəm ki, bütün bu prosesdən sonra qiymətlərdə müəyyən dəyişikliklər ola bilər”. Ə.Əmiraslov Azərbaycandakı tibbi təhsillə bağlı tənqidlərə də cavab verib: ”Azərbaycanda olan tibb təhsili Avropa və Türkiyə təhsili ilə tamamilə eynidir. Rezidentura sistemimiz Türkiyə rezidenturasına tamamilə yaxındır. Razıyam, rezidentlərin hazırlandığı klinikaların sayı çoxdur. Kiçik həcmli klinikalarda rezident hazırlamaq olmaz, bunun üçün aparıcı tibb müəssisələri olmalıdır. Sistemə gəldikdə isə, dediyim kimi, Avropa və Türkiyə ilə eynidir”.

**Komitə sədri vurğulayıb ki, tibbi tullantıların toplanması, emalı ilə bağlı müəyyən iş görülməlidir:** ”Tibbi tullantıların toplanması, emalı xüsusi bir texnologiya tələb edir. Ona görə də bu məsələ ölkədə nə vəziyyətdədir, necə aparılır və digər bu kimi suallar ətrafında düşünməli, müəyyən iş görülməlidir. Bu məsələ ilə məşğul olduqdan sonra yaxın bir vaxtda Milli Məclisin Səhiyyə komitəsində tibbi tullantılarla bağlı dinləmə keçirməliyik”.

*Ə.Əmiraslanov bildirib ki, TƏBİB-lə danışıqlar aparılmalı, qazilər və şəhid ailələri üçün ambulator müalicə zamanı dərmanlar pulsuz olmalıdır:* ”Bu, ciddi xərc tələb edir, doğrudur, amma bu istiqamətdə ilkin olaraq, şəhid ailələri və qazilər üçün, sonrakı dönəmdə əlillər və təqaüddə olan insanlar üçün bu addımı atmaq olar”. Deputat ölkədəki dərman çatışmazlığı məsələsinə də toxunub: ”Hazırda ölkədə dərman çatışmazlığı var, bəzən dərmanların keyfiyyəti məsələsi gündəm olur, şikayətlər olur. Həmçinin dərmanların qiyməti məsələsi də narazılıq yaradır. Dünən mən görüşdə idim, orada məhz bu məsələ ilə bağlı müraciətlər oldu. Hesab edirəm ki, bütün bu hallar nəzərə alınmalıdır”.

**Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib ki, bizim ölkədə qonşu ölkələrə baxanda dərmanların qiyməti 3-4 dəfə bahadır:** ”Nəyə görə dərman tapılmır? Ölkədə ən vacib olan dərmanları tapmaq qeyri-mümkündür. Biz şirkətlərə sual edirik, ölkədə dərman qiymətləri bu qədər bahadırsa, niyə o dərmanları gətirməkdə maraqlı deyillər?”.

**İsmayıl**

**Elan**

”MY VVAY AZ” MMC şirkətinə məxsus Rusiya Federasiyasına olan No-66146 nömrəli Beynəlxalq icazə blankı itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi:**
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 781



## Pul haqqında...

### 30 yaşına çatmamış düşünün

**Arzu etdiyiniz həyata sahib olmaq üçün pulunuzu necə xərcləyəcəyinizi bilmək və düzgün yatırım etmək qarşıdakı illərdə rahat yaşamağınıza kömək edə bilər.**

Amma bunları 30 yaşınadək bilmək daha faydalıdır. Bunun üçün ilk növbədə maliyyə bazarını öyrənmək, bu bazara bələd olmaq lazımdır. Bu, doğru seçim etməyinizə yardımçı olacaq. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, mütəxəssislərin gənclərə məsləhəti bu bilgilərə 30 yaşınadək sahib olmalarıdır. İnsan hər yaşda maliyyə sıxıntıları ilə qarşılaşa bilər. Belə durumlarda insanın şəxsi büdcəsində müəyyən miqdarda pulunun olması onu çətin durumdan çıxarır. Maliyyə sahəsinin biliciləri tövsiyə edir ki, sahib olduğunuz pul 50-30-20 bölgüsü ilə idarə edilməlidir. Pulun 50 faizi zəruri ehtiyaclara, 30 faizi istəyə bağlı xərclərə, 20 faizinə isə qənaət edilməlidir. Gəliri olan hər bir insan az miqdarda olsa belə, geriyə pul "atmalıdır". Bunu edərsəniz, qənaət etməyi də öyrənəcəksiniz. Hara, nə qədər pul xərclədiyinizə daim nəzarət edin, pulun hara daha çox xərcləndiyini bilin. Bu, pulunuza nəzarət edə bilmənizi təmin edəcək. Pulun hara xərcləndiyini və büdcənizin real durumunu bilirsinizsə, büdcəni də düzgün tərtib edə biləcəksiniz və sıxıntıya düşmək ehtimalınız azalacaq. Gəlirləriniz artsa da, xərcləmələrdə diqqətli olun, almaq istədiyiniz malın, məhsulun həqiqətən sizə lazım olub-olmadığını ciddi düşünüb qərar verin. Bəzən o qədər də vacib olmayan şeylərin alınması büdcəyə zərər verə bilər. Ən əsası gənclikdə təqaüd yaşını düşünün. Qənaət etdiyiniz pullar təqaüdə çıxdıqda sizə çox gərək olacaq.

**Məlahət**

## İtlərinin oğurlanmasından şikayətçi oldu

### Amma 66 min lirə pul cəzasını ona kəsdilər



**Konyada qadağan olunmuş cins itlərinin oğurlandığını bildirmək üçün polisə müraciət edən şəxs cərimələnib. Adam polis bölməsinə ərizə ilə müraciət edərək ona məxsus 2 pitbull itinin oğurlandığını bildirib.**

Şikayət əsasında məsələni araşdıran polis qrupları qısa müddətdə sözügedən itlərin yerini müəyyən ediblər.

Ətraf Mühit, Təbiəti və Heyvanları Mühafizə Bürosu qrupları Karatay Rayon Kənd Təsərrüfatı və Meşə Müdirliyi səlahiyyətliləri ilə birlikdə itlərin olduğu ünvana gedib.

Rəsmilərin müayinəsi nəticəsində 2 itin də heç bir qeydiyyatı olmadığı müəyyən olunub.

Heyvanlar Baytarlıq İşləri Müdirliyi qruplarına təhvil verilib.

İtin sahibinə isə 66 min 798 TL inzibati tənbeh tətbiq edilib.

**Turan**



# Çarəsizliyin faciəsi

### Zəlzələdən 53 gün keçir, həyat yoldaşı və onun anasından hələ də xəbər yoxdur

**Qardaş Türkiyədəki dəhşətli zəlzələnin bais olduğu faciəvi həyat hekayələri hələ də davam edir. Hatayın Antakya bölgəsində çökmüş "Renessans" binasının dağıntıları altından Milli Həndbol (kişilər) komandası və Çimərlik Milli Komandasının kapitanı Cemal Kütahya ilə 5 yaşlı oğlu Çinarın cənazələri çıxarılmışdı.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, milli komanda kapitanın 4 aylıq hamilə həyat yoldaşı Pelin Kütahya və onun anası Nurten Mutlunun cəsədləri isə hələ də tapılmayıb. Zəlzələdən 53 gün keçsə də, onların nə ölüsü, nə dirisindən bir xəbər var. Xəbərə görə, Hatayda itkinlərin axtarışları davam edir. Hatayın Antakya bölgəsində yerlə bir olan "Renessans" yaşayış binasının dağıntılarında da axtarışlar aparılır. Cemal Kütahya ilə oğlu Çinarın cansız bədənləri zəlzələnin 8-ci günündə dağıntılar altından çıxarılıb. Həyat yoldaşı və onun anasından isə hələ də heç bir xəbər yoxdur. C.Kütahyanın bacısı Gözdə Kütahya DHA-ya bildirib ki, qardaşı və qardaşı oğlu dəfn edildi. Lakin Pelin və anasının cəsədləri hələ də tapılmayıb: "Nə edəcəyimizi bilmirik. Xəstəxanalara baş çəkmişik. DNA nümunəsi təqdim edilib. İtkin elanı da verilib. Ağlım çaşır artıq. Necə olur ki, Cemal və Çinarın cansız bədənləri çıxarılır, onlarınkı isə tapılmır?!. Sanki yer yarılıb, içinə giriblər". Pelin Kütahyanın qaynı Sərdar İldırım zəlzələdən sonra Hataya getdiyini belə anladıb: "Zəlzələ bölgəsinə gəldim, "Renessans" binası böyrü üstə çökmüşdü. Ardınca 2-ci blokda yanğın başladı. Mənzilləri qaz balonları ilə isidirmişlər. Partlayışlar 2-3 gün davam etdi, yanğın artdı. Yanğınlara ilk günlər heç bir müdaxilə edilmədi. Çox sayda cansız bədənlər çıxarıldı.






8-ci gündə Cemalla Çinarın cansız bədənləri çıxarıldı. Onlar beton plitələrin altında qaldıqları üçün bədənləri yanmamışdı. Pelinlə anasının cəsədləri isə hələ də tapılmayıb. Baxmadığımız yer qalmayıb. Bizim kimi doğmasını, qohumunu hələ də tapa bilməyənlər çoxdur. Çarəsiz qalmışıq. Bundan sonra nə edəcəyik, bilmirik. İtkinlərin axtarışına qoşulan qruplar var. İnsanlar övladlarını, yaxınlarını gözləyir".

**Məlahət**

## Maraqlı araşdırma

### Həyat yoldaşını itirmək kişilər üçün daha ölümcüldür



**Danimarkada aparılan araşdırma göstərir ki, həyat yoldaşını itirmək kişilər üçün qadınlardan daha ölümcüldür. "Medical Xpress" saytında yer alan xəbərə görə, həyat yoldaşının ölümündən sonra 65-69 yaş arası dul kişilərin ölüm nisbətinin yüzdə 70 faiz olduğu müəyyən edilib. Dul qadınlar arasında bu risk isə cəmi 27 faizdir.**

**Tədqiqat yaşı 65 və yuxarı olan təxminən 925 min danimarkalı üzərində aparılıb. Kopenhagen Universitetinin İctimai Sağlamlıq Departamentində araşdırma aparan Alexandros Katsiferis, qadın və kişi arasındakı nisbət fərqinə səbəb olan amillər haqqında "dəqiq" məlumata sahib olmadıqlarını ifadə edib.**

**Lakin Katsiferis, kişilərin fiziki və emosional sağlamlığının arvadlarının onlara qayğı göstərmə tərzi ilə bağlı olduğunu bildirib. Alim dul qalan kişilərin bir növ daha çox "çöküş" yaşadığına diqqət çəkib. Tədqiqat həmçinin itkidən sonra üç il ərzində sağ qalan həyat yoldaşlarının səhiyyəyə xərclədiyi pulun miqdarına diqqət yetirib.**

**Hər iki cinsdə həyat yoldaşını itirdikdən sonra ümumi sağlamlıq xərclərində artım olsa da, bu sahədə kişilərin xərclərinin həyat yoldaşını itirməsindən asılı olaraq daha çox artdığı müəyyən olunub. Nəticələr "PLOS ONE" jurnalında dərc olunub.**

**Turan**

## 20 dünya böyüklüyündə...

### Günəşdə yeni nəhəng dəlik aşkar edilib



**Günəşin üstündə 20 Yer böyüklüyündə yeni dəlik müşahidə edilib. NASA-nın məlumatına görə, bu, martın 22-də aşkar edilən Yer ölçüsündə dəlikdən sonra bu həftə ikinci kəşfdir.**

**Tac dəliyinin günəş küləklərini Yerə doğru saatda 2 milyon 896 min kilometr sürətlə göndərəcəyi gözlənilir. Bildirilib ki, bu küləklər dünya üçün təhlükə yaratmır.**

**Alimlər cümə günü Yerə çatması gözlənilən küləklərin elektron infrastruktura zərər verməyəcəyini, ancaq bəzi bölgələrdə auroralar (Şimal işıqları) yaradacağını açıqlayıblar.**

**Dəlikləri adətən Günəşin qütblərində görünsə də, aşkar edilən sonuncu dəlik ekvatorun yaxınlığında olub.**

**London Akademiyasının kosmos fizikası professoru Daniel Verskaren, "Tac dəliyinin yeri onu çox maraqlı edir. Mən bu cümə gecəsi şənbə səhərinə qədər bu tac dəliyindən Yerə sürətli küləyin gəlməsini gözləyirəm" deyib.**

**Bu tac dəlikləri sayəsində daha əvvəl də Günəşin güldüyünü görmüşük.**

**Turan**



# İndi alça və çiyələk yemək təhlükəlidir

### Allergiyası, immuniteti zəif olan insanların, hamilə qadınların, uşaqların bu cür meyvələri qəbul etməsi məqsədəuyğun deyil

**"Piştaxtalar gül açıb yenə... alça 100, çiyələk 10 manat. Hələ bir azdan gilas-filan da gələcək". "Şərq" xəbər verir ki, bu sözləri pediatr Vaqif Qarayev sosial media hesabında yazıb. İndi baha qiymətə satışa çıxarılan meyvə-giləmeyvələrin orqanizmə heç bir faydası olmadığını vurğulayan pediatrın fikrincə, əksinə, mövsümündə yeyilməyən bu qidalar allergiyası və mədə-bağırsaq problemləri olan uşaqlara ziyandır.**

Onun sözlərinə görə, sağlam və faydalı qidalanma üçün mütləq şəkildə ilk olaraq mövsümü meyvə və tərəvəzlərə üstünlük verilməlidir: "Meyvələr vaxtında və təbii yolla yetişəndə tərkibindəki vitamin və mikroelementlər uşaqlı-böyüklü hamıya faydalı olur. Çiyələyin tərkibində portağaldan daha çox C vitamini var. Eləcə də K, B vitaminləri, kaliy, fol turşusu və digər elementlər çoxdur. Ona görə çiyələk qanazlığı, anemiyalı uşaqlara vacibdir. Çiyələk tər və sidikqovucu xassəyə malikdir. Lakin çiyələk güclü allergen meyvə olduğundan dəridə allergiya, səpmə, ishal, qusma da verə bilər".

**Professor Adil Qeybulla da mövsümündə yeyilən qidalarla vaxtsız satılanlar arasında böyük fərq olduğunu deyib.** Onun sözlərinə görə, bazarda satılan meyvələrin əksəriyyəti xaricdə müxtəlif istixanalarda yetişdirilir. Bu meyvələrin yetişdirilməsi, eləcə də uzun müddət xarab olmamağı üçün müxtəlif gübrə və dərmanlardan istifadə olunur. Təbii ki, bu da son nəticədə insanların zəhərlənməsi ilə nəticələnir. Allergiyası, həssaslığı, immuniteti zəif olan insanların, hamilə qadınların, uşaqların bu cür meyvələri qəbul etməsi məqsədəuyğun deyil. Genetik modifikasiya edilmiş, dərmanla yetişdirilmiş meyvələr bir çox halda həssas insanların bədənində səpkilərin yaranmasına, üzün şişməsinə səbəb olur. Sovet dövründə bazardakı çiyələklərin ölçüləri çox kiçik olurdu. Hazırda satışda olan çiyələklər ondan dəfələrlə böyükdür. Belə meyvələr istixana şəraitində yetişdirilir və insan orqanizmi üçün faydalı deyil. Əhaliyə yerli məhsullardan istifadə etməyi məsləhət görürəm. Yəni ən azından yedikləri meyvənin yetişdirilmə mühitindən xəbərdar olsunlar".

**Şəymən**

### Təbrik edirik!




**Emil balamızın 4 yaşı tamam oldu.** Şıltaq olsa da nənələrinin, babasının, bütün ailə üzvlərinin gözünün nuru, qəlbinin sevincidi Emil. Onun əmrlərinə hamı tabedir. Nahaq deyilməyib, evin sultanı uşaqdır. Gün olsun, Emil balamız gələcək həyatında qazandığı uğurlarla valideynlərini sevindirsin. Nənələri, babası, doğmaları ona baxıb qürurlansınlar.

**Emili ad günü münasibətilə babası Aydəmir, böyük nənəsi Salatın, nənələri Fazilə, Tovuz, əmisi Özal və əlbəttə ki, anası Yəmən, atası Turqut təbrik edir. Balaca Cahid də qardaşının təbrikinə qoşulur. Birlikdə böyüsünlər, bəxtəvər olsunlar.**

## "Nar" ardıcıl 4 ildir, Müştəri Loyallığı İndeksində liderdir




**2022-ci ilin yekun nəticələrinə əsasən, yerli telekommunikasiya bazarında mobil operator "Nar" Müştəri Loyallığı İndeksinə (NPS - Net Promoter Score) görə ölkənin lider mobil operatorudur.**

Artıq ardıcıl dördüncü ildir ki, "Nar" Müştəri Loyallığı İndeksində rabitə bazarında ən yüksək göstəriciyə nail olur.Respondentlər ən çox mobil operatorun sərfəli qiymət qarşılığında təqdim etdiyi keyfiyyətli xidmətdən razı qalıblar.

Bu, mobil operatorun tariflərinin statistikasında öz əksini tapıb; "Cavannar 6" və "Cavannar 9" tariflərinə qoşulanların sayı müvafiq olaraq 135% və 85% təşkil edib, "Full" paketlərində isə ümumilikdə 13% artım olub. Daha üstün müştəri xidmətləri göstərmək üçün ötən il 20 "Nar" mərkəzi və diler dükanlarını yenilənmiş, eləcə də, 164 yeni 4G baza stansiyası ilə şəbəkə əhatəsi daha da gücləndirilib. "Nar" şəbəkəsində 4G istifadəçilərinin sayı da 7,6% artıb.

"Nar" 2022-ci ildə müştərilərin heç yana getmədən nömrə əldə etməsi üçün ilk dəfə üztanıma texnologiyası ilə eSIM xidməti təqdim etdi. Abunəçilərin balanslarına nəzarət etmələri üçün "Nar+" özünəxidmət tətbiqi təqdim edildi. Bundan başqa, ötən ildən etibarən "Nar", ingilis dili öyrənmək istəyən abunəçilərinə "LingoKids" və "FluentWorlds" kimi öyrədici tətbiqləri ilk ay pulsuz olmaqla, 70% endirimlə təqdim edir.

Mobil operatorun bütün məhsul və kampaniyaları haqqında məlumatları nar.az veb saytından və "Nar"ın sosial media səhifələrindən öyrənə bilərsiniz.